## ATƏT-İN MİNSK QRUPU ARTIQ MÖVCUD DEYİL

# BAKININ NÖVBƏTİ DİPLOMATİK QƏLƏBƏSİ



Prezident İlham Əliyevin diplomatik gedişləri Minsk qrupunun ləğvi zərurətinin məntiqi sonluqla yekunlaşmasında mühüm rol oynadı. Hələ üç il əvvəl Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığını bəyan etməsi Dağlıq Qarabağ probleminin birdəfəlik həll edildiyinin ilkin mesajı idi.

Bu diplomatik qələbə Qarabağ kartının Bakıya qarşı təzyiq kimi istifadəsini birdəfəlik neytrallaşdırdı. Bu, həm də İrəvandakı revanşist qüvvələrin əllərində bayraq etdikləri Madrid, Kazan, Ki-Uest və s. "prinsipləri"nin əks olunduğu sənədlərin də heç bir hüquqi gücünün qalmadığının təsbiti deməkdir.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

6 SENTYABR ŞƏNBƏ 2025 № 34 (4235) Qiyməti - 60 qəpik www.kaspi.az







## SÜRƏTLİ RƏQƏMSALLAŞMA RİSKLƏRİ DƏ ARTIRIR

Bu ilin ilk yarısında Azərbaycanda 47 dövlət qurumunun 95 əməkdaşı kibergigiyena qaydalarına riayət etmədiyinə görə haker hücumlarının qurbanına çevrilib. Həmin şəxslərin 16 faizi admin səlahiyyətli əməkdaşlar olub.

SƏHİFƏ 10-da



## AZƏRBAYCAN ÇAY BAZARINDA BALANS DƏYİŞİR

İdxalın azalması qiymət dəyişiklikləri və daxili bazarda yerli istehsalın artması ilə əlaqələndirilir. İxracın artması isə yerli istehsalçıların məhsullarını yeni bazarlara çıxarmaq imkanlarının yaranması ilə bağlıdır.

SƏHİFƏ 12-də



## VİLLALAR VƏ FƏVVARƏLƏR ŞƏHƏRİ

Tivoli - Romadan bir günlük səyahət üçün ideal yerdir. Bu, Latsio bölgəsində, Aniene çayı tərəfindən oyulmuş dərənin üstündə yerləşən kiçik bir şəhərdir. Mənzərəli villaları, bağları, tarixi yerləri ilə tez-tez nağıl şəhəri kimi təsvir olunur.

SƏHİFƏ 9-da

## REGİONAL YANAŞMALARIN TƏQDİM ETDİYİ FÜRSƏTLƏR



# QLOBAL DƏYİŞİKLİKLƏRİN MƏRKƏZİNDƏ

Çin yeni dünya düzəninin formalaşması üçün çoxtərəfli strategiyasını formalaşdırır. Analiz etdikdə Azərbaycanın da Pekinin təqdim etdiyi qlobal və regional yanaşmalarda xüsusi yer tutduğu aydın görünür.

**AZƏRBAYCAN-ÇİN ƏMƏKDAŞLIĞI YENİ DÜZƏNDƏ**

Çin özünün yüksək intensivli və nəticə yönümlü diplomatik səylərini ortaya qoydu. Bu əsnada Prezident İlham Əliyevin yüksək səviyyədə qarşılanmasını da xüsusi qeyd etməyə əsas var. Bu, Çinin Azərbaycana, onun lideri İlham Əliyevə dərin hörmətlə yanaşmasının göstəricisi idi.

**PEKİNİN BAKIYA TƏQDİM ETDİYİ İMKANLAR**

Azərbaycan Çinin qlobal yanaşmalarının təqdim etdiyi strateji fürsətləri anlayır. Bu, Azərbaycana Çinlə əməkdaşlığı dərinləşdirmək, Pekinin Zəngəzur dəhlizi layihəsindəki iştirakını gücləndirmək kimi xarici siyasət prioritetlərini təkmilləşdirməyə imkan tanıyır.

SƏHİFƏ 3-də

Dövlət Departamenti də səfiri dəstəkləyir

## TRAMPIN QUDASI MAKRONA QARŞI



ABŞ-nin Fransadakı səfiri Çarlz Kuşner Fransa Prezidenti Emmanuel Makronu antisemitizmlə mübarizə üçün kifayət qədər səy göstərməməkdə günahlandırıb. O qeyd edib ki, Fransanın Fələstinin müstəqilliyini tanıyacağını bəyan etməsi "ekstremistləri həvəsləndirir və zorakılığı qızışdırır".

SƏHİFƏ 5-də



## İKİ FƏRQLİ MƏSƏLƏNİ EYNİLƏŞDİRMƏK CƏHDİ

Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur.

SƏHİFƏ 2-də



## YARIM MİLYONLUQ TURİST HƏDƏFİ

Paytaxtın küçələrində ərəb, rus, hindistanlı və ya pakistanlı turistlərlə yanaşı, Çindən gələn turistlərə də rast gəlinir. Onların gəlişini kütləviləşdirmək, təkcə paytaxta deyil, regionlarımıza da cəlb etmək üçün hərtərəfli işlər aparılır.

SƏHİFƏ 13-də



## 383 TRANSFER, 327 MİLYON AVRO XƏRC

Türkiyənin Super Liqa klubları bu yay transferlərə çox böyük xərc çəkdilər. Yenə də əsas xərc çəkən "Qalatasaray"la "Fənərbağça" oldu. Digər klublar isə daha çox azad agent və ya aşağı ödənişli oyunçularla müqavilə imzaladılar.

SƏHİFƏ 16-da



**Gediş haqqı məsafəyə görə ödəniləcək?**

SƏHİFƏ 6-da



**Universitetlər subbakalavrları istəmir**

SƏHİFƏ 7-də



**Bakının tozuna da öyrəşməliyik**

SƏHİFƏ 14-də



**Yeraltı su ehtiyatlarımız da tükənir?**

SƏHİFƏ 8-də



**Bapbalaca boyu var, dam dolusu riski**

SƏHİFƏ 15-də

# İKİ FƏRQLİ MƏSƏLƏNİ EYNİLƏŞDİRMƏK CƏHDİ

**Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur. Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlıların təqib olunması da münasibətlərə mənfi təsir edən amillər sırasındadır.**

F. ABASOĞLU

Rusiyanın 2024-cü ilin dekabrında Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş verən AZAL-a məxsus sərnişin təyyarəsinin qəzası ilə bağlı həqiqətdən uzaq və məsuliyyətdən yayınmağı hədəfləyən təxribatçı açıqlamaları davam edir. Sentyabrın 4-də Rusiya Xarici İşlər Nazirliyinin qəza ilə bağlı verdiyi sığorta ödənişi açıqlaması mübahisə doğurub. Moskva bunu kompensasiya kimi təqdim edib. Əslində isə Rusiyanın ödədiyi təzminat deyil, sərnişinlərin və aviaşirkətin sığorta şirkətləri ilə olan fərdi və korporativ müqavilələrinə əsasən, sığorta ödənişidir.

### BAKININ HAQLI TƏLƏBİ

Məsələ ilə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi xüsusi bəyanatla çıxış edib. "Təyyarənin vurulması nəticəsində qəzaya uğraması ilə bağlı sığorta ödənişlərinin həyata keçirilməsi məsələsi ilə əlaqədar Rusiya Federasiyası Xarici İşlər Nazirliyi tərəfindən sentyabrın 4-də verilən açıqlama təəccüb doğurmaqla yanaşı, ictimaiyyəti çaşdırır", - deyə bəyanatda vurğulanır. Bildirilir ki, AZAL-a və sərnişinlərə Rusiyada qeydiyyatda olan sığorta şirkəti tərəfindən sığorta ödənişlərinin həyata keçirilməsi və təyyarənin vurulması ilə bağlı Azərbaycanın Rusiya hökumətindən kompensasiya tələb etməsi məsələləri tamamilə fərqli mövzulardır.

Sözügedən şirkət tərəfindən qeyd edilən sığorta ödənişlərinin həyata keçirilməsi prosesi artıq altı aydır davam edir. Ümumilikdə, bu ödənişlər məhz AZAL-ın sığorta müqaviləsi çərçivəsində, şirkətin təyyarəsini və sərnişinləri sığorta etməsi nəticəsində öhdəliklərə uyğun olaraq təmin edilir: "Ödənişlərin məhz Rusiya sığorta şirkəti tərəfindən həyata keçirilməsi məsələsinə gəldikdə, qeyd edək ki, adətən təyyarələrin sığortası müvafiq beynəlxalq sığorta şirkətləri vasitəsilə həyata keçirilir. Rusiyanın ərazisində heç bir beynəlxalq sığorta şirkətinin fəaliyyət göstərmədiyini nəzərə alaraq, AZAL təyyarəsinin sığortası Rusiya şirkəti vasitəsilə aparılıb".

Beləliklə, sığorta ödənişlərinin Azərbaycanın Rusiya hökumətindən tələb etdiyi kompensasiya ilə eyniləşdirilməsi cəhdləri düzgün deyil.



## "AZƏRBAYCANLILAR TƏQİB OLUNUR"

XİN-nin bəyanatında iki ölkə arasında yaşanan gərginliyin digər məqamları ilə bağlı qarşı tərəfin reallıqdan uzaq açıqlamalarına da toxunulub. Bildirib ki, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibinin cari ilin iyul ayında Azərbaycanda 13 Rusiya vətəndaşının həbs olunmasının Azərbaycan-Rusiya münasibətlərinin pisləşməsi səbəbi kimi təqdim etməsi və onların azadlığa buraxılmasının münasibətlərin yaxşılaşması üçün şərt kimi irəli sürməsi yanlışdır: "Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur. Bununla yanaşı, Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlıların təqib olunması, Yekaterinburq şəhərində azərbaycanlıların döyülərək qətlə yetirilməsi münasibətlərdə əlavə gərginlik yaradıb. Bununla yanaşı, Rusiyanın müxtəlif dövlət qurumlarının Azərbaycana qarşı fəaliyyəti münasibətlərə mənfi təsir edən amillər sırasındadır".

### "RUSİYA CİNAYƏTİ ÖRT-BASDIR ETMƏYƏ CƏHD ETDİ"

Mövzu ilə bağlı Oxu.Az-a danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Hikmət Babaoğlu da bildirib ki, AZAL-a məxsus sərnişin təyyarəsinin Rusiya hava məkanında vurulmasından dərhal sonra Moskva bu hadisə ətrafında informasiya xaosu yaratmağa başladı, cinayəti ört-basdır etməyə çalışdı: "Bu günə qədər də Rusiya eyni mövqedən çıxış edir. Sərnişin təyyarəsinin vurulması ilə bağlı həqiqətləri etiraf etmək istəmir. Çox təəssüf ki, Rusiya rəsmilərinin son açıqlamasında yenə də bu hadisə ətrafında yalan danışılır, təyyarənin vurulmasına görə sığorta ödənişi və təzminat verilməsi bir-birinə qarışdırılır. Hamıya məlumdur ki, təyyarəni sığorta edən şirkət mütləq onun sığortasını ödəməlidir. Ancaq təzminat tamamilə fərqli bir məsələdir.



Azərbaycanın tələb etdiyi odur ki, vurulmuş təyyarəmiz üçün təzminat ödənilsin, təyyarənin hansı şəraitdə, nə üçün vurulduğu Rusiya tərəfindən etiraf edilsin, üzrxahlıq olunsun. Rusiyanın əsas məqsədi hadisələri bu cür təqdim etməklə ictimai rəyi manipulyasiya edərək Azərbaycanı müqəssir göstərməkdir. Ona görə də düşünürəm ki, Rusiya rəsmilərinin sonuncu açıqlamaları da buna xidmət edir. Yaxşı olar ki, Moskva törətdiyi hərəkətə görə üzr istəsin və təzminat ödəsin. Düşünürəm ki, Rusiya sonda bu addımı atmaq məcburiyyətində qalacaq. Unutmaq olmaz ki, dövlətləri beynəlxalq münasibətlər sistemində nüfuzlu edən təkcə ərazi böyüklüyü, əhali sayı, iqtisadiyyatı deyil, həm də beynəlxalq hüquqa istinad edərək normal davranış qaydalarına riayət etməsidir. Biz Rusiyadan bunu gözləyirik", - deyə deputat əlavə edib.

# QLOBAL DƏYİŞİKLİKLƏRİN MƏRKƏZİNDƏ



Çin yeni dünya düzəninin formalaşması üçün özünün çoxtərəfli strategiyasını formalaşdırır. Diqqətlə analiz etdikdə Azərbaycanın da Pekinin təqdim etdiyi qlobal və regional yanaşmalarda xüsusi yer tutduğu aydın görünür.



AQŞİN KƏRİMOV

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-dan sentyabrın 3-dək bu ölkədə işgüzar səfərdə olub. Tiencin şəhərinin Binxay Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının sənaye və informasiya texnologiyaları naziri Li Leçen və digər rəsmi şəxslər qarşılayıblar.

Prezident İlham Əliyev daha sonra Tiencində Çinin Sədri Si Cinpin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Maldiv Prezidenti Məhəmməd Muizzu, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşlər keçirib. Bundan başqa, Prezident İlham Əliyev Çinin bir sıra şirkətinin rəhbər heyəti ilə görüşərək əməkdaşlıq perspektivlərini müzakirə edib.

İlham Əliyev səfər zamanı "ŞƏT plyus" formatındakı görüşdə çıxış edib. Birinci xanım Mehriban Əliyeva ilə Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak ediblər.

### AZƏRBAYCAN-ÇİN ƏMƏKDAŞLIĞI YENİ DÜZƏNDƏ

Çin iki böyük tədbiri bir həftəyə sığdıraraq, özünün yüksək intensivli və nəticə yönümlü diplomatik səylərini ortaya qoydu. Bu əsnada Prezident İlham Əliyevin yüksək səviyyədə qarşılanmasını da xüsusi qeyd etməyə əsas var. Bu, Çinin Azərbaycana, onun lideri İlham Əliyevə dərin hörmətlə yanaşmasının göstəricisi idi.

Hər iki hadisə diplomatik duruş, hərbi güc və tarixi hekayəni birləşdirən qiymətləndirməyə malikdir. Çin bir tərəfdən Şanxay Əməkdaşlıq Təşkilatını (ŞƏT) ABŞ-nin mərkəzləşdirmək istədiyi beynəlxalq nizama qarşı bayraqdar kimi inkişaf etdirir. Başqa yandan isə Qələbə Paradında nümayiş etdirdiyi müasir silahlarla strateji fokuslanmasındakı hərbi elementləri gündəmə gətirir.

Azərbaycan Çinin qlobal və regional yanaşmalarının təqdim etdiyi strateji fürsətləri anlayır. Bu, Azərbaycana Çinlə əməkdaşlığı dərinləşdirmək, Pekinin Zəngəzur dəhlizi layihəsindəki iştirakını gücləndirmək kimi xarici siyasət prioritetlərini təkmilləşdirməyə imkan tanıyır. Avqustun 8-də Vaşinqtonda Donald Trampın vasitəçiliyi ilə İlham Əliyev və Nikol Paşinyan arasında əldə edilmiş razılıqlardan sonra isə Azərbaycan güc mərkəzləri arasında Zəngəzur dəhlizində mühüm əlaqələndiriciyə çevrilmək potensialına yiyələndi. Bir tərəfdən ABŞ ilə strateji tərəfdaşlıq, başqa yandan isə Çinlə müttəfiqlik əlaqələri Vaşinqtonla Pekini Zəngəzur dəhlizində əməkdaşlıq standartları yaratmasını stimullaşdıracaq.

### HİNDİSTANIN YARALARI DƏRİNLƏŞİR

Ancaq Azərbaycan-Çin əməkdaşlığı özünü Pekinə qarşı mühüm strateji oyunçu kimi görən Hindistanın yaralarını dərinləşdirir. Bu səbəbdəndir ki, Çin Azərbaycanın ŞƏT üzvlüyünü dəstəkləsə də, Hindistan yenidən Bakının tamhüquqlu üzvlük təklifini blokladı. Pakistan da buna cavab olaraq, Ermənistanın üzvlük müraciətini blokladı. Beləliklə, Azərbaycan-Çin-Pakistan üçbucağı Hindistan-Ermənistan əlaqələrini daha dərindən sarsıdır və Hindistanın regional ambisiyalarını neytrallaşdırır. Həm də ona görə ki, Azərbaycan Cənubi Qafqaz regionundakı tendensiyaları formalaşdıran güclü əldir. Çin və Pakistan kimi güclərin Azərbaycana dəstək verməsi, üstəlik ABŞ ilə strateji əlaqələrdən irəli gələrək Vaşinqtonun yanaşmaları Hindistanın Bakıya qarşı sövdələşmə nəticələrini kölgədə qoyur.

## ƏLİYEV "ZƏNGƏZUR DƏHLİZİ" DEYİR, PAŞİNYAN İSƏ...



İlham Əliyev "ŞƏT plyus" formatında keçirilən görüşdə çıxış edərkən deyib: "Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".

Daha sonra çıxış edən Paşinyan isə sözügedən terminin istifadəsinin Vaşinqton razılaşmasına zidd olduğunu iddia edib.

İlham Əliyev proseslərə uzaqgörən strategiya ilə, Paşinyan isə çox dar çərçivədən yanaşır. Bəli, bu, faktdır ki, 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında Zəngəzur dəhlizi ilə əlaqədar davam edən şiddətli mübahisələr Vaşinqtondakı razılıqla müsbət dəyişikliklə əvəzləndi. Bu, nəhayətdə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək dəhlizin reallaşmasıdır və İlham Əliyev onu yenidən Zəngəzur koridoru kimi təsbit edir. Əliyevin ifadəsinə dəhlizi "Tramp marşrutu" kimi gündəmə gətirən ABŞ də etiraz etmir, çünki nəhayətdə mahiyyət eynidir. Əliyev bir daha "Zəngəzur dəhlizi" terminini dünya nizamının formalaşmasına yardım etmək üçün anlayış kimi istifadə edir. Bu, gələcəkdə, Zəngəzur dəhlizi üzrə digər açıq qalan məsələlərin də həllini Azərbaycanın istədiyi şəklə salacağını prioritetləşdirir.

ŞƏT sammitindən çıxan nəticə budur ki, Çin qlobal və regional müharibələrin şiddətləndiyi dövrdə, özünün təqdim etdiyi çoxtərəfli strategiyanı formalaşdırır. Azərbaycanla bağlı məsələyə gəlincə, Çin yeni dünya nizamının memarı kimi Bakı ilə dərinləşmiş strateji əlaqələri dizayn etməkdə maraqlı olacaq.

# BAKININ NÖVBƏTİ DİPLOMATİK QƏLƏBƏSİ

30 il ərzində Azərbaycan ərazilərinin işğalına hüquqi don geyindirərək onu legitimləşdirməyə çalışan Minsk qrupu artıq mövcud deyil. Qarşıda isə bizləri Prezident İlham Əliyevin uzaqgörən siyasətinin yaratdığı daha bir perspektiv reallıq gözləyir - sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinin açılması.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Sentyabrın 1-də ATƏT Nazirlər Şurası ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul edib. Minsk prosesinin bağlanması haqqında qərar təşkilata üzv 57 ölkə tərəfindən yekdilliklə qəbul olunub. Qərara əsasən, keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız sayılır.

### ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏRİN KABUSU

Qeyd edək ki, 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam şəkildə bərpa edib. Qarabağ münaqişəsi birdəfəlik olaraq həllini tapıb. Hələ Vətən müharibəsinin nəticəsinə uyğun olaraq, yaranan yeni reallıqlar şəraitində keçmiş Minsk qrupunun fəaliyyətinin artıq heç bir əhəmiyyət daşımadığı aydın idi. Rəsmi Bakı bu illər ərzində ardıcıl şəkildə Minsk qrupunun ləğvi məsələsini gündəmə gətirsə də, həmsədr ölkələr, ən başlıcası isə Ermənistan bu qərarın qəbul edilməsinə süni maneələr yaradır, müxtəlif bəhanələr irəli sürürdülər. Çünki münaqişənin həlli güclü və bütöv Azərbaycan reallığının tam müstəqil siyasi kursla birləşməsi anlamına gəlirdi ki, bu da Cənubi Qafqazda özlərinin məkrli planlarını həyata keçirtmək istəyən beynəlxalq dairələrin ən böyük kabusu demək idi.

### ERMƏNİPƏRƏSTLƏRİ GERİ ÇƏKİLMƏYƏ MƏCBUR EDƏN ANLAŞMA

Lakin Prezident İlham Əliyevin həyata keçirtdiyi ardıcıl və qətiyyətli siyasət, diplomatik gedişlər yeni reallığın doğurduğu nəticənin – Minsk qrupunun ləğvi zərurətinin məntiqi sonluqla yekunlaşmasında mühüm rol oynadı. Hələ üç il əvvəl Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığını bəyan etməsi Dağlıq Qarabağ probleminin birdəfəlik həll edildiyinin ilkin mesajı idi. Bununla belə, başda Fransa və ABŞ-nin keçmiş rəhbərliyi olmaqla, erməni lobbisinin təsiri altında İrəvanın Minsk qrupunun buraxılması tələbinə qarşı çıxmasına zəmin yaradırdı. Rəsmi Bakının hərbi-siyasi qələbəsinin yaratdığı reallıqlar, həmçinin beynəlxalq aləmdə baş verən ciddi dəyişikliklər, xüsusilə də Donald Trampın ABŞ Prezidenti seçilməsi bu məsələdə həlledici rol oynadı. Məhz Ağ Ev rəhbərinin birbaşa təşəbbüsü ilə Vaşinqtonda imzalanan tarixi razılaşmalar İrəvan da daxil olmaqla, Minsk qrupunun ləğvinə qarşı çıxanları fakt qarşısında qoydu. Təsadüfi deyil ki, Vaşinqtonda sülh mətninin paraflanmasından, Azərbaycan və Ermənistanın ATƏT-ə birgə müraciətindən sonra Cənubi Qafqazda uzun illər özünün destruktiv fəaliyyəti ilə seçilən Fransa dərhal bu təşəbbüsü dəstəkləyən bəyanatla çıxış etdi. Bir qədər gözləməklə Rusiya da analoji yanaşmanı ortaya qoydu.

## Bakı ardıcıl mövqeyini davam etdirəcək

Beləliklə, Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da vurğulandığı kimi, sözügedən qərarın qəbulu, Azərbaycan Respublikasının vaxtilə işğal edilmiş əraziləri üzərində suveren nəzarətini və ərazi bütövlüyünü bərpa etməsinin, bununla da Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması ilə bağlı reallığın və Azərbaycan tərəfindən irəli sürülmüş sülh gündəliyinin beynəlxalq müstəvidə qəbul edilməsinin göstəricisidir. Bu qərar həm də avqustun 8-də Vaşinqton görüşündə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar əldə edilmiş razılıqların praktiki icrası istiqamətində mühüm addımdır. Azərbaycan bundan sonra da regionda sülhün və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüquqa əsaslanan prinsipial və ardıcıl mövqeyini davam etdirəcək.

### REVANŞİSTLƏRƏ AĞIR ZƏRBƏ

Azərbaycanın əldə etdiyi bu möhtəşəm diplomatik qələbə Dağlıq Qarabağ kartının Bakıya qarşı təzyiq kimi istifadəsini birdəfəlik neytrallaşdırdı. Bu, həm də İrəvandakı revanşist qüvvələrin əllərində bayraq etdikləri Madrid, Kazan, Ki-Uest və s. "prinsipləri"nin əks olunduğu sənədlərin də heç bir hüquqi gücünün qalmadığının təsbiti deməkdir.

## Tarixi qərara beynəlxalq aləmin reaksiyası

Qəbul edilən qərarla bağlı beynəlxalq reaksiyalar da rəsmi Bakının mövqeyinə tam dəstəyin ifadə olunmasının göstəricisi kimi qiymətləndirilə bilər. Məsələn, ATƏT PA-nın Prezidenti Pere Joan Pons Minsk Prosesinin bağlanması ilə bağlı ATƏT Nazirlər Şurasının qərarını alqışlayıb. "Dialoqa əsaslanan bu tarixi addım Cənubi Qafqazda davamlı sülh yolunu möhkəmləndirir. Biz bu prosesi dəstəkləməyə davam edəcəyik", - deyə ATƏT PA-nın Prezidenti vurğulayıb.



Pere Joan Pons



Elina Valtonen

ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonenin də Minsk qrupunun ləğvi qərarına reaksiyası təqdirəlayiqdir. "Ermənistan və Azərbaycanı sülhə, münasibətlərin normallaşmasına yönəlmiş tarixi sazişlər və onların həyata keçirilməsinə dərhal başlamaq qərarı münasibətilə bir daha təbrik etmək istəyirəm. Mən onların birgə müraciətinə dərhal cavab verdim və prosesdə gözəl əməkdaşlığa görə tərəflərə səmimi qəlbdən təşəkkürümü bildirirəm", - E.Valtonen bəyan edib.

Rusiya tərəfi də ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı qərarı haqlı sayır. "Biz bu addımı haqlı hesab edirik, regionda vəziyyətin köklü dəyişməsi baxımından əsaslandırılıb", - deyə Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarova bildirib.

Göründüyü kimi, 30 il ərzində Azərbaycan ərazilərinin işğalına hüquqi don geyindirərək onu legitimləşdirməyə çalışan Minsk qrupu artıq mövcud deyil. Qarşıda isə bizləri Prezident İlham Əliyevin uzaqgörən siyasətinin yaratdığı daha bir perspektiv reallıq gözləyir - sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinin açılması. Bunun üçün İrəvanın yerinə yetirməli olduğu tələblər də bəllidir.

# TRAMPIN QUDASI MAKRONA QARŞI


Emmanuel Makron

ABŞ-nin Fransadakı səfiri Çarlz Kuşner Fransa Prezidenti Emmanuel Makronu antisemitizmlə mübarizə üçün kifayət qədər səy göstərməməkdə günahlandırıb. O qeyd edib ki, Fransanın Fələstinin müstəqilliyini tanıyacağını bəyan etməsi "ekstremistləri həvəsləndirir və zorakılığı qızışdırır".


AZƏR NURİYEV


Çarlz Kuşner

NATO-nun iki müttəfiq dövləti – Fransa və Birləşmiş Ştatlar arasında münasibətlər gərginləşib. Fransada antisemitzm hallarının artması və hökumətin müvafiq addımlar atmaması ABŞ-də narahatlıq yaradıb. İş o yerə çatıb ki, ABŞ Prezidenti Donald Trampın qudası, ABŞ-nin Fransadakı səfiri Çarlz Kuşner bununla bağlı narahatlığını məktubla ifadə edib. Amerikalı diplomat Fransa Prezidenti Emmanuel Makronu antisemitizmlə mübarizə üçün kifayət qədər səy göstərməməkdə günahlandırıb. Səfir qeyd edib ki, Fransanın Fələstinin müstəqilliyini tanıyacağını bəyan etməsi "ekstremistləri həvəsləndirir və zorakılığı qızışdırır". Kuşner əlavə edib ki, antisemitizm uzun müddətdir Fransa həyatını kölgələyir, 2023-cü ildə HƏMAS-ın hücumundan sonra isə yeni mərhələyə qədəm qoyub. "Fransada yəhudilərin küçədə hücuma məruz qalmadığı, sinaqoq və məktəblərin təhqir edilmədiyi və yəhudilərə məxsus müəssisələrə hücum olmayan bir gün keçmir. Sizin Daxili İşlər Nazirliyiniz hətta uşaq bağçalarında da belə insidentlər barədə məlumat verib", - deyə Kuşner iddia edir. O, Makronu "qətiyyətlə hərəkət etməyə", "pozucuları təqib etməyə" və "HƏMAS-a legitimlik verən addımlardan imtinaya" çağırıb.

**KUŞNERİN İTTİHAMLARI "QƏBULEDİLMƏZ" ADLANDIRILIB**

Fransa Xarici İşlər Nazirliyinin məktuba cavabı sərt olub. Nazirlik Kuşnerin ittihamlarını "qəbuledilməz" adlandırıb. Kuşner Fransa Xarici İşlər Nazirliyinə çağırılıb, lakin Parisdə olmadığını bəhanə edərək, ora getməyib. Xarici siyasət idarəsinə iradları dinləmək üçün daha aşağı rütbəli amerikalı diplomat gedib. Fransa XİN bildirib ki, ABŞ səfiri ölkənin daxili işlərinə qarışır və bununla Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasını pozur.

## Keçmiş vəkil və tikinti maqnatı, multimilyoner

Qeyd edək ki, Kuşner karyera diplomatı deyil. O, keçmiş vəkil və tikinti maqnatı, multimilyoner, ən əsası, ABŞ Prezidenti Donald Trapmın qudasıdır. Onun oğlu Trampın qızı İvanka ilə evlidir. İvanka 2009-cu ildə toydan az əvvəl iudaizmi qəbul edib.

Tramp Kuşneri 30 noyabr 2024-cü ildə ABŞ-nin Fransadakı səfiri vəzifəsinə təyin edib. O, qudasını "parlaq biznesmen" adlandırıb və onun "ABŞ və Fransa arasında tərəfdaşlığı gücləndirmək üçün" Parisə getdiyini bildirib. Yəni Kuşner təkcə ABŞ-nin Fransadakı səfiri kimi deyil, həm də Tramp ailəsinin üzvü kimi tanınır. Ağ Ev başçısının ilk prezidentlik müddəti ərzində Kuşner Trampın baş müşaviri vəzifəsini tutub və ABŞ-nin Yaxın Şərq siyasətini müəyyən edib.

**DÖVLƏT DEPARTAMENTİ SƏFİRİN MÖVQEYİNİ MÜDAFİƏ EDİB**

ABŞ Dövlət Departamenti səfirin mövqeyini müdafiə edib. Kuşner "milli maraqlarımızın təşviqi üçün böyük iş görür", - deyə Dövlət Departamentinin mətbuat katibi müavini Tommi Piqott bildirib.

Diplomatın bəyanatlarının Dövlət Departamenti tərəfindən açıq şəkildə dəstəklənməsi Fransa-ABŞ münasibətlərindəki problemləri daha da ağırlaşdırır və iki ölkənin hakimiyyətlərinin təkcə antisemitizm probleminin qiymətləndirilməsində deyil, digər məsələlərdə də fikir ayrılığı olduğunu göstərir. Əsas fikir ayrılıqlarından biri Yaxın Şərqdəki müharibənin qiymətləndirilməsidir. Fransa Fələstinin bütün Aİ ölkələri tərəfindən tanınması hərəkatının ön sıralarında durur və İsrail Baş naziri Benyamin Netanyahu hökumətinin Qəzza sektorundakı hərəkətlərini fəal şəkildə pisləyir. Yəhudilərin çox güclü olduqları ABŞ üçün bu, qəbuledilməz mövqedir. Tramp və Makron Rusiya-Ukrayna münaqişəsinə münasibətdə də fikir ayrılığına malikdirlər.

## Fransa yəhudilərə qarşı cinayətlərin azaldığını açıqlayıb

Fransa Daxili İşlər Nazirliyi isə bu il yəhudilərə qarşı cinayətlərin 27,5% azaldığını bildirib. Antisemit fəallığının artması 2023-cü il 7 oktyabrdan - Yaxın Şərqdə müharibə başlayandan müşahidə olunur. Fransada Avropanın ən böyük yəhudi icması (təxminən yarım milyon insan) və ərəb ölkələrindən milyonlarla mühacir var. Fransa hakimiyyəti antisemitizmlə mübarizə üçün göstərdikləri səylərin kifayət qədər olmadığını düşünmür. Hüquq-mühafizə orqanları səfirin vəziyyəti həddindən artıq şişirtdiyi qənaətindədir. DİN-in məlumatında qeyd olunur ki, "2023-cü ildən bəri Fransada yudofobiya (antisemitizm) zəminində bir dənə də qətl törədilməyib, ABŞ-də isə eyni dövrdə bu cür cinayətlər dəfələrlə baş verib.

## ABŞ-Fransa münasibətlərində ciddi ziddiyyətlər

Ehtimal ki, Kuşnerin bəyanatı qarşıdakı hadisələrlə əlaqəlidir. Fransa Prezidenti sentyabrda BMT Baş Assambleyasında ölkəsinin Fələstinin müstəqilliyini tanıdığını elan etmək niyyətindədir. Baş verənlər ABŞ-Fransa münasibətlərindəki ciddi ziddiyyətləri üzə çıxarıb. Əgər dünya siyasətinin ən vacib məsələləri - İsrail və Ukrayna ilə bağlı anlaşma əldə edilməzsə, müttəfiq ölkələr arasında tam diplomatik böhran baş verə bilər.

Fransa, çox güman ki, ABŞ səfirinin geri çağırılmasını tələb etmək əvəzinə, ayrı-ayrı radikal müsəlmanların hərəkətlərinin Parisin rəsmi mövqeyinə uyğun olmadığını sübut etməyə çalışacaq. Lakin belə görünür ki, yaxın gələcəkdə ABŞ-Fransa münasibətlərindəki gərginlik artmaqda davam edəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# GEDİŞ HAQQI MƏSAFƏYƏ GÖRƏ ÖDƏNİLƏCƏK?

Müxtəlif sosial qruplara münasibətdə xüsusi yanaşmalar nəzərdə tutulur. Tələbələr, sosial yardıma ehtiyacı olan insanlar və digər həssas qruplar üçün ayrıca güzəştli şərtlərin tətbiqi müzakirə mövzusudur. Aylıq və birdəfəlik gediş kartları, digər alternativ yanaşmalar da nəzərdən keçirilir.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Bakı Metropoliteni" QSC aylıq və birsəfərlik gediş haqqı kartlarının tətbiqini nəzərdən keçirir. Qurum sədrinin müşaviri Emil Əhmədov jurnalistlərə açıqlamasında bildirib ki, müxtəlif sosial qruplara münasibətdə xüsusi yanaşmalar nəzərdə tutulur: "Tələbələr, sosial yardıma ehtiyacı olan insanlar və digər həssas qruplar üçün ayrıca güzəştli şərtlərin tətbiqi müzakirə mövzusudur. Aylıq və birdəfəlik gediş kartları, digər alternativ yanaşmalar nəzərdən keçirilir. Dünyada məsafədən asılı olaraq fərqli tarif modelləri tətbiq olunur. Bir çox ölkələrdə sərnişinlər qət edilən məsafəyə uyğun olaraq ödəniş edirlər. Azərbaycanda da bu istiqamətdə müəyyən müzakirələr aparılır".

Bu açıqlamalar fonunda ictimai nəqliyyatda tarif modellərinin dəyişməsi, sosial güzəştlərin tətbiqi və beynəlxalq təcrübənin ölkəmizdə necə uyğunlaşdırıla biləcəyi məsələlərini nəqliyyat üzrə ekspertlərlə müzakirə etdik.

## DİFFERENSİALLAŞDIRILMIŞ TARİF SİSTEMİ

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, bu, differensiallaşdırılmış tarif sistemidir və ictimai nəqliyyatın qiyməti müxtəlif amillər əsasında müəyyən olunur: "Məsələn, məsafəyə, gündəlik vaxt aralığına, nəqliyyat növünə və sərnişin kateqoriyasına görə fərqlənə bilər. Yaşlı insanlar, uşaqlar, təqaüdçülər, tələbələr kimi qruplar üçün xüsusi güzəştlər tətbiq olunur. Belə differensiallaşdırılmış tariflər hər bir şəhərin iqtisadi vəziyyəti və əhalinin sosial durumunun öyrənilməsindən sonra müəyyən edilir. Bu, dünya təcrübəsində geniş yayılmış normal bir praktikadır. Xüsusilə, dövlətin sosial yönümlü siyasətinə dəstək olaraq həssas qruplar üçün güzəştlərin tətbiqi həm sosial ədalətin təminatına, həm də ictimai nəqliyyatın əlçatanlığına töhfə verir".

## "SƏRNİŞİN AYLIQ KART ALARKƏN DAHA AZ XƏRC ÖDƏYİR..."

Mütəxəssis vurğulayır ki, yaxın gələcəkdə differensiallaşdırılmış tarif sistemi təkcə metroda deyil, ictimai nəqliyyatın digər seqmentlərində də geniş tətbiq edilə bilər: "Məsələn, aylıq kartlardan əsasən həmin şəhərdə yaşayan sakinlərin istifadə etməsi məqsədəuyğun olar. Sərnişin aylıq kart alarkən daha az xərc ödəyir və bu, uzunmüddətli istifadə üçün daha sərfəlidir. Digər tərəfdən, birdəfəlik və ya gündəlik kartlar, həmçinin məsafəyə əsaslanan tariflər isə əsasən şəhərə qonaq gələn turistlər üçün nəzərdə tutulur. Bu sistem, sərnişinlər üçün müxtəlif seçim imkanları yaradır və müxtəlif ehtiyaclara uyğunlaşır. Məsələn, Böyük Britaniya, Londonda ictimai nəqliyyat tarifləri differensiallaşdırılıb. Burada sutkanın saatlarına, getdiyin əraziyə və zonalara görə qiymətlər dəyişir. Hətta hazırda bizdə də bəzi tariflər differensiallaşdırılmış formada tətbiq olunur və bu tendensiyanın genişlənməsi gözlənilir".




## İctimai nəqliyyatda "Brutto" modeli

Nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev deyir ki, böyük şəhərlərdə ictimai nəqliyyatın səmərəli təşkili üçün subsidiyalaşdırma geniş şəkildə tətbiq olunur. Bunun üçün əsas mexanizmlərdən biri isə "Brutto müqavilə"lərə keçiddir: "Hazırda bu model bir sıra qonşu ölkələrdə artıq tətbiq olunur. Dünyanın bir çox böyük şəhərlərində isə uzun illərdir ki, uğurla istifadə edilir. "Brutto" modelinin əsas xüsusiyyəti hər kilometrə görə dövlət subsidiyasının ayrılmasıdır. Bu, həm avtobus, həm də metro seqmentində tətbiq oluna bilər və nəticə etibarilə bir çox vacib məsələlərin həllinə imkan yaradır. Bununla gündəlik, həftəlik, aylıq, üç, altı və 12 aylıq abunə biletləri, tələbələr, təqaüdçülər, əlillər və Vətən müharibəsi iştirakçıları üçün güzəştli və ya pulsuz keçidlər, müxtəlif nəqliyyat növləri arasında müəyyən vaxt aralığında pulsuz keçid sistemləri tətbiq oluna bilər. Bu model sərnişinlər üçün həm rahatlıq, həm də maliyyə baxımından qənaəti təmin edir. Eyni zamanda, sərnişin axınının daha optimal şəkildə bölüşdürülməsinə və nəqliyyat sisteminin ümumi effektivliyinin artmasına şərait yaradır. İlkin mərhələdə brutto müqavilələrə keçid vacibdir ki, ictimai nəqliyyatda fəaliyyət göstərən şirkətlərin maliyyə dayanıqlığı təmin olunsun. Bu model daşıyıcılara sabit gəlir imkanı yaradır və xidmət keyfiyyətinin yüksəldilməsi üçün motivasiya verir".

## BİR TƏRƏFDƏN VƏTƏNDAŞ ÖDƏNİŞ EDİR, DİGƏR TƏRƏFDƏN İSƏ...

Mütəxəssis vurğulayır ki, hazırda metroda irimiqyaslı layihələr həyata keçirilir: "Gələn ilin əvvəlindən 28 May – Cəfər Cabbarlı xətlərinin ayrılması layihəsinə start veriləcək. Bu layihənin il ərzində icrası planlaşdırılır və nəticədə metronun üç əsas xətti müstəqil şəkildə, daha qısa intervallarla fəaliyyət göstərə biləcək. Bununla yanaşı, gələn ilin sonuna qədər yeni metro xətlərinin və stansiyalarının tikintisinə də başlanması gözlənilir. Layihələrin icrası 2030-cu ilə qədər nəzərdə tutulub. Tətbiq olunduqdan sonra metronun sərnişin tutumu əhəmiyyətli dərəcədə artacaq. Çünki metro yeraltı ayrıca hərəkət zolağına malik olduğundan, digər nəqliyyat növləri ilə müqayisədə daha sürətli və maneəsiz xidmət göstərir. Bu cür irimiqyaslı layihələrin həyata keçirilməsi yeni tarif modellərinə və "Brutto müqavilə"lərə keçidi zəruri edir. Bu modeldə bir tərəfdən vətəndaş ödəniş edir, digər tərəfdən isə əməliyyat xərclərinin böyük hissəsi dövlət tərəfindən subsidiya edilir. Nəticədə isə sistem daha dayanıqlı və effektiv şəkildə fəaliyyət göstərir".

# UNİVERSİTETLƏR SUBBAKALAVRLARI İSTƏMİR

Hazırda subbakalavrların ali təhsil müəssisələrinə qəbul qaydalarında hər hansı problem yoxdur. Amma ali təhsil müəssisələrinin subbakalavrların imtahansız qəbulu və universitetləri "zəbt" etmələri ilə bağlı etirazları eşidilməkdədir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




"Subbakalavrların çoxu işləyir, dərsə gəlmirlər. Həmçinin təlim prosesində onlardan nəticə əldə etmək çox çətin olur"

Bir neçə ildir ki, Azərbaycanda kolleci yüksək nəticələrlə bitirən məzunlar ali məktəblərin eyni ixtisaslarına (kollecdəki ixtisasın eyni) Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarını vermədən qəbul oluna bilirlər. Yüksək texniki peşə təhsilini bitirən şəxslərə də subbakalavr ixtisas dərəcəsinin verilməsi bu çevrəni daha da genişləndirib. Həm kollec, həm yüksək peşə təhsili məzunlarının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul hüququnun təsbit olunması təhsildə fasiləsizliyin təmin edilməsi və ali təhsilin hamı üçün əlçatan olması baxımından təqdirəlayiq hal kimi dəyərləndirilir.

Hazırda subbakalavrların ali təhsil müəssisələrinə qəbul qaydalarında hər hansı problem yoxdur. Amma ali təhsil müəssisələrinin subbakalavrların imtahansız qəbulu və universitetləri "zəbt" etmələri ilə bağlı etirazları eşidilməkdədir. Məsələn, təkcə ötən tədris ilində 5000-dən çox subbakalavr ali məktəbə imtahansız qəbul olub.

"Subbakalavrların çoxu işləyir, dərsə gəlmirlər. Həmçinin təlim prosesində onlardan nəticə əldə etmək çox çətin olur. Subbakalavrların sayı çox olduqda ali məktəblər şikayət edir", - deyə DİM sədri bu yaxınlarda keçirdiyi mətbuat konfransında bildirib. Yəni ali məktəblər subbakalavr məzunlarını tədris prosesinə inteqrasiya etməkdə çətinlik çəkirlər.

## "Xüsusən regional kolleclərdə təhsilin səviyyəsi aşağıdır"

Təhsil məsələləri üzrə ekspert İlham Əhmədov bildirir ki, subbakalavrların universitetlərə imtahansız qəbulu bir çox ölkələrdə var. Bizdə də uzun müddətlik müzakirələrdən sonra, nəhayət belə bir qərar qəbul olunub: "Amma subbakalavrlar universitetə qəbula gələndə səviyyələri çox vaxt gözlənilən kimi olmur. Əvvəla, onların əksəriyyəti kolleclərə aşağı balla qəbul olurlar. Xüsusən regional kolleclərdə təhsilin səviyyəsi aşağıdır. Elə Bakı kolleclərində də problemlər var. Bəzi kollec tələbələri işləyirlər, adları dərsdə getsə də, davamiyyətdə zəifdirlər, bu da keyfiyyətə mənfi təsir edir. Digər qrup tələbələr reallıqda zəif olsalar da, hansısa yollarla fərqlənmə diplomu ala bilirlər. Bu tələbələr sonra da universitetlərə imtahansız qəbul olurlar. Düzdür, aralarında güclü tələbələr də olur, amma əksəriyyətinin bilik səviyyəsi zəifdir. Bu, auditoriyada da hiss olunur: 11-ci sinfi bitirib gələn tələbələrlə subbakalavrlar arasında fərq olur".

Ekspert hesab edir ki, subbakalavrların ali məktəblərə imtahansız qəbulunu ləğv etməklə heç nə dəyişməyəcək: "Söhbət ümumən təhsil sistemində keyfiyyətin yüksəlməsindən, davamiyyətin təmin edilməsindən, qiymətlərin obyektiv verilməsindən, bir sözlə, qanunların işləməsindən getməlidir. Guya subbakalavrlar imtahansız qəbul olunana qədər universitetlərdə hər şey yaxşı idimi? 100-120 balla tələbə qəbul edirdik. İndi də aşağı balla tələbə qəbulu həyata keçirilir. Yəni təhsildə sistemli problemlər var. Qəbul planı artır, lap yaxşı, demək təhsil əlçatan olur, amma ali məktəbə gələnin də səviyyəsi olmalıdır. Məktəblər öz fəaliyyətlərini gücləndirməlidirlər. Hamı bilir ki, bu gün repetitorluq, kölgə təhsili məktəbləri iflic vəziyyətə salıb. Hansısa bir kiçik problemi üzə çıxarıb həll eləməklə təhsil sistemi dirçəlməyəcək. Məsələlər kökü, dərindən və kompleks həll olunmalıdır".

## Tələbə sayını artırmaq üçün...

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Dünya Məktəbinin həmtəsisçisi Hamlet İsaxanlı məsələyə dünya təcrübəsi nümunəsindən yanaşır. Onun sözlərinə görə, subbakalavrlarla bağlı digər ölkələrdə də belə ənənə var: "ABŞ-də "icma kollecləri" çox geniş yayılıb. İki illik təhsillə ayrıca fəaliyyət göstərirlər. Türkiyədə "yüksək məslək okullar"ı (yüksək peşə məktəbləri) deyilir. Türkiyənin bütün universitetlərinin nəzdində ikiillik məktəblərdə yüksək məslək sahiblərini hazırlayırlar". H.İsaxanlı bildirir ki, Azərbaycanda sovet dövründə texnikumlar fəaliyyət göstərsə də, sonra ləğv olunub və yeniləri qurulmayıb: "Sonralar Elm və Təhsil Nazirliyi "universitetlər istəsələr götürə bilərlər ki, onlarda sənət məktəbləri olsun", - deyə ali məktəblərə təklif etdi. Yadımdadır ki, mən bu təklifin əleyhinə oldum. Çünki o, əslində sənət məktəblərinin məhv edilməsi deməkdir. Onlar ayrıca olanda o tələbələri müxtəlif sənət sahibləri kimi hazırlamaq olurdu. Ali məktəblərə verəndə, onlar zəif tələbə kimi gəldilər. Digər tərəfdən, ali məktəblərdə tələbələrin sayını artırmaq məqsədi daşıyırdı. Mən bunu iflas sayıram. Bu, Azərbaycanda peşə təhsilinə faktiki zərbə vurdu, ali məktəblərə də keyfiyyətsiz tələbə verdi. Buna görə də Xəzər Universiteti kənarda durdu. "Tələbə sayını magistratura, doktorantura, elmi tədqiqatla artırarıq", - dedim".**



Hamlet İsaxanlı

### "YA DİSTANT, YA DA QİYABİ OXUMAQ İSTƏYİRLƏR"

**Universitet müəllimi Osman Hacıyevin fikrincə, ali təhsil müəssisələri subbakalavrları ona görə istəmirlər ki, onlar dərsə gəlmir, işləmək istəyirlər: "Təklifləri də bundan ibarətdir ki, onlara ali təhsil almaqlarından ötrü ya distant, ya da qiyabi şərait yaradılsın". O.Hacıyev bildirir ki, digər tərəfdən, ali təhsil müəssisələri bakalavrlarsız iş proseslərini tam şəkildə qura bilməzlər: "Xüsusi ilə də regionda olan ali təhsil müəssisələri büdcələrini subbakalavrların ödədiyi maliyyə ilə doldururlar. Bu baxımdan, bir tərəfdən onların gəlməsinə maraqlı olmasalar da, digər tərəfdən ali təhsil müəssisələrində yaranacaq maliyyə sıxıntısı haqqında düşünməlidirlər".**



İlham Əhmədov

YERALTI SULARIN ÖZBAŞINA ÇIXARILMASININ QARŞISI ALINMALIDIR

# YERALTI SU EHTİYATLARIMIZ DA TÜKƏNİR?



Yeraltı suların təkrar bərpası üçün tədbirlər planı hazırlanacaq. Mütəxəssislər hesab edirlər ki, bu sahədə ciddi monitorinqlərə ehtiyac var.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın yeraltı sularının həcminin müəyyənləşdirilməsi üçün xaricdən mütəxəssislər cəlb olunub. Bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) rəsmisi İlham Quliyev deyib. "Bu dəqiqləşmə aparılıb hesabat təqdim olunduqdan sonra yeraltı suların təkrar bərpası üçün tədbirlər planı hazırlanacaq", - deyə İ.Quliyev əlavə edib.

Bu tədbirlər planını zəruri edən nədir? Yeraltı sularımızla bağlı hansı problemlər mövcuddur?

**"ÇAYLAR, BULAQLAR QURUYUR, BUZLAQLAR ƏRİYİR..."**

ADSEA-nın Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutunun mütəxəssisi, aparıcı mühəndis Cavid Rəhmanlının sözlərinə görə, bu addımın atılmasının əsas səbəbi bütün dünyada baş verən iqlim dəyişmələridir: "Bu məsələ daha çox Kür çayında suyun azalmasından sonra aktuallaşdı. Çünki Kür Azərbaycanın ən böyük su kütləsinə sahib çayıdır. Bu səbəbdən də həyəcan təbili çalmalı olduq. Həmçinin bulaqların, buzlaqların həcminin azalması belə tədbirlərə əl atmağı zəruri etdi".

Mütəxəssis yeraltı sularımızın çirklənməsindən də bəhs etdi: "Yeraltı sularda çirklənmə daha çox obyektlərin, zavodların ərazisində baş verir. Onların buraxdığı tullantıların laylara axması, torpağı çirkləndirməsi yeraltı sulara da təsir edir. Həmçinin yeraltı sulardan kənd təsərrüfatında istifadə olunur ki, buna da nəzarət olunmalıdır. İsrafın qarşısını almağa çalışmalıyıq".



Cavid Rəhmanlı

**"QARABAĞ İLK SIRALARDADIR"**

C.Rəhmanlı bildirdi ki, işğal olunmuş torpaqlarımız azad edildikdən sonra su ehtiyatlarımız da artmış oldu: "Çünki Azərbaycanın yeraltı su ehtiyatlarına görə Qarabağ ilk sıralardadır. Qarabağda formalaşan yeraltı sulardan bu gün də istifadə olunur. Yeni artezian quyuları qazılır və istismar olunmağa başlayıb".

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Coğrafiya İnstitutunun şöbə müdiri, ekoloq Ənvər Əliyevin sözlərinə görə, ölkəmizdə olan yeraltı su ehtiyatlarının təkcə həcmi yox, həm də keyfiyyəti nəzərə alınmalıdır: "Yeraltı sularımızda keçən əsrlərdə müşahidə olunan qalxmalar nəticəsində dəniz heyvanlarının cəsədləri məhv olub, suya qarışıb. Bu mənada Balakəndən Şamaxıya qədər olan əraziləri qeyd etmək olar. El dilində o sulara cod su deyirik. Yeraltı sularımız düzənlik ərazilərimizdə, məsələn Kür-Araz ovalığında, Gəncə-Qarabağ ərazisində kütləvi şəkildə kənd təsərrüfatı üçün istifadə edilib. Müxtəlif gübrələr və başqa mikro-elementlər torpağa qarışıb. Bu maddələr ion şəklində suya hopa bilər. Bu sulardan istifadə zamanı ehtiyatlı olmalıyıq. Samur-Dəvəçi ovalığından başlamış Qusar maili düzənliyinə qədər 30 milyard ton su ehtiyatımız mövcuddur. Naxçıvan, Qazax, Tovuz və Füzuliyə qədər ərazilərdə isə vulkan püskürmələrindən sonra suların tərkibi dəyişdi və mineral sular meydana gəldi. Həmin ərazilərdə 360-a yaxın kəhrizimiz mövcuddur".

## "GƏLƏCƏKDƏ YERALTI SU EHTİYATIMIZIN MƏNBƏYİ ARTACAQ"

Ekoloqun fikrincə, hazırda yeraltı sularımızda azalma kimi hallar yoxdur: "Ölkəmiz hazırda yağıntılı dövrü yaşayır. O səbəbdən yeraltı sularımızda heç biri quruma mövcud deyil. Bu da gələcəkdə yeraltı su ehtiyatımızın mənbəyinin artmasından xəbər verir. Amma əvvəlki dövrlərdə qar ehtiyatımız az olurdu, çaylar, göllərimiz quruyurdu. İndi elə problemimiz yoxdur".

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri, ekoloq alim Telman Zeynalov da düşünür ki, yeraltı sularla bağlı heç bir problemimiz yoxdur: "Yalnız o ola bilər ki, yeraltı suların miqdarı azalsın. Bu da yağıntılardan asılıdır. Dağlıq ərazilərdə həmişə yağıntı olur. Bizim ölkəmiz də yetəri qədər dağla əhatələnib.



Telman Zeynalov

Qış vaxtı qar yağır. Hətta yay aylarında da rayonlarda yağışlar yağır. Yağıntılar nəticəsində yeraltı sular təmin olunur. Yetəri qədər artezian quyularımız mövcuddur".

## "MÜTLƏQ MÜVAFİQ İCAZƏLƏR ALINMALIDIR"

"Sağlam həyata doğru" İctimai Birliyinin üzvü, su məsələləri üzrə ekspert Rövşən Abbasov isə bildirdi ki, Azərbaycanda yeraltı suların monitorinqinin gücləndirilməsi üçün yerli institutların potensialının artırılmasına çox ehtiyac var: "Bu istiqamətdə mütəxəssis hazırlığının yaxşılaşdırılmasını, həmçinin yerli mütəxəssislərin potensialının gücləndirilməsinin vacib olduğunu hesab edirəm".

R.Abbasovun sözlərinə görə, yeraltı suların özbaşına çıxarılmasının qarşısı alınmalıdır: "Yeraltı suların monitorinqinin yaxşılaşdırılmasına ehtiyac var. Çünki bizdə demək olar ki, 90-cı illərdən etibarən yeraltı suların kompleks qiymətləndirilməsi hələ də aparılmayıb. Həmçinin yeraltı suların çıxarılması ilə bağlı problemlər mövcuddur.



Bir çox yerlərdə yeraltı suların özbaşına çıxarılması üçün həm fermerlər, həm də əhali tərəfindən quyular qazılır. Bu quyuların qazılması üçün heç bir icazə alınmır. Qrunt sularından sərbəst istifadə etmək olar. Amma artezian quyular qazılarkən mütləq müvafiq icazələr alınmalıdır. Bu da ancaq xüsusi və müstəsna hallarda mümkündür. Tez-tez eşidirik ki, kimsə haradasa artezian quyusu vurdurur. Bu, yolverilməz bir haldır. Çalışmaq lazımdır ki, gələcəkdə yeraltı suların çıxarılması azaldılsın. Bu, həm dövlət səviyyəsində, həm də özbaşına qazılan quyulara aiddir".



Rövşən Abbasov

Açıqlanan son statitik məlumatlara əsasən, Azərbaycanın yeraltı şirin su ehtiyatları təxminən 10 milyard kubmetrdən 8 milyarda düşüb. Bu barədə ADSEA yanında fəaliyyət göstərən Su İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin şöbə müdiri Rafik Verdiyev məlumat verib. Onun sözlərinə görə, hazırda Azərbaycanın 8,4 milyard kubmetr həcmində yeraltı şirin su ehtiyatı mövcuddur: "Bununla da ölkənin bərpa olunan şirin su ehtiyatları 26,2 milyard kubmetrə çatır. Lakin təbii mənbələrdən götürülən suyun 25 faizi itkiyə gedir".

# VİLLALAR VƏ FƏVVARƏLƏR ŞƏHƏRİ



## Tivoli imperatorlar, papalar, kardinallar, mütəfəkkirlər və rəssamlar tərəfindən sevilib. Onlar Romanın səs-küyündən qaçaraq, məhz bu şəhərdə sığınacaq tapıblar.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Tivoli - Romadan bir günlük səyahət üçün ideal yerdir. Bu, Latsio bölgəsində, Aniene çayı tərəfindən oyulmuş dərənin üstündə yerləşən kiçik bir şəhərdir. Dramatik hadisələrlə dolu uzun tarixi var. Mənzərəli villaları, bağları, qədim Roma amfiteatrı kimi tarixi yerləri ilə tez-tez nağıl şəhəri kimi təsvir olunur. Həmçinin şəlalələri və dar küçələri ilə, dünya turistlərinin diqqətini çəkən termal mənbələrlə məşhurdur.

Tivoli (əslində Tibur adlanır) imperatorlar, papalar, kardinallar, mütəfəkkirlər və rəssamlar tərəfindən sevilib. Onlar Romanın səs-küyündən qaçaraq, məhz bu şəhərdə sığınacaq tapıblar. Kiçik ərazisinə baxmayaraq, Tivoli turistləri maraqlandıran tarixi və memarlıq abidələri ilə zəngin bir çox unikal obyektlərə sahibdir. Aniene çayı üzərində strateji mövqeyə malik olması sayəsində qədim Roma dövründə əsası qoyulan şəhər İmperator Adrianın dövründə mühüm yaşayış məntəqəsi kimi tanınıb.

### ROMA PAPALARININ SEVDİYİ YER

Tivoli Romadan xeyli əvvəl - 13-cü əsrdə qurulub. Buna görə də şəhər çox zəngin tarixə malikdir. Təəssüf ki, İkinci Dünya müharibəsi zamanı şəhər amansız bombardmanlara məruz qalıb, nəticədə bir çox tarixi binalar dağıdılıb. Uzun sürən bərpadan sonra italyanlar şəhərin əvvəlki görkəmini qaytara biliblər.

Məhz havasına və sərinliyə görə Roma İmperiyası dövründə imperatorlar və aristokratlar Tivolini yay villaları üçün məkan seçiblər. Bu villalardan ikisi şəhəri ziyarət etmək üçün əsas səbəbdir: hazırda Villa Adriana və Villa Este UNESCO-nun Dünya İrsi siyahısındadır. Roma papaları da bu sərin şəhərdə dincəlmək üçün yay iqamətgahlarını Tivoliyə köçürüblər.

Əksər turistlər Tivolidəki bu tarixi tikililər haqqında eşidib, bəziləri onların internetdə şəkillərini görüb, lakin daha çox insan onları real həyatda öz gözləri ilə görmək üçün buraya can atır. Çünki Tivoliyə səyahət bir gündə minillikləri keçmək, antik dövrü ziyarət etmək, dəbdəbəyə, gözəlliyə heyran olmaq, ləzzətli kofe içmək, dondurma yemək, yerli mətbəxin dadına baxmaq və intensiv hərəkət etmək fürsətidir.

### BURADA HƏR DƏQİQƏ QİYMƏTLİDİR

Dəmiryolu vağzalında qatardan düşüb şəhərin mərkəzinə doğru irəlilədikcə sanki tarix adama qucaq açır. Mərkəzdə şəhərin azad ruhu hiss olunur. Küçə musiqiçilərinin nəğməsi, insanların şən hay-küyü yol boyunca yayılır. Yaşıl ağacların kölgəsindəki skamyalarda əsasən yerli qocalar oturub və qayğısız halda söhbətləşirlər. Turistlər isə bu şəhərə bir günlük baş çəkməyə gəldiklərindən "hər dəqiqə qiymətlidir", - deyə küçələrdə çox da ayaq saxlamırlar. Turizm şirkətlərinin nümayəndələri hər addımda "Villalar və fəvvarələr şəhərinə xoş gəldiniz" deyə əllərindəki broşürü uzadırlar.

### İMPERİYANIN QÜDRƏTİNİN SÜBUTU

Tivolinin ən məşhur görməli yerlərindən biri Roma İmperatoru Adrian üçün iqamətgah kimi tikilmiş nəhəng kompleksdir. Villa təxminən 120 hektar ərazini tutur. Turistlər bu ərazidə qədim dövrlərə aid saysız-hesabsız binaların xarabalıqlarını görmək imkanı əldə edirlər. Adrian villası imperiyanın qüdrətinin ən möhtəşəm sübutlarından biridir. İndi də onun 40 hektara yaxın ərazisini tutan xarabalıqları arasında gəzəndə təsəvvür etmək olar ki, imperator memarlığının zənginliyinə görə tarixə ən böyük saraylardan biri kimi düşəcək iqamətgah tikmək əmrini necə verib. Görünür, villa imperatorun tələşdan qaçdığı sevimli məkanına çevrilib. Villada ən yaxşı qorunan arena, Yunan teatrı, Akademiya, Qızıl Meydan və Filosoflar zalı var. Saray yaşıl ağaclarla əhatə olunub, kolonnalarla bəzədilib, eyvanın altındakı yollar və zindanlar, dekorasiyalar bu bölgədə bol olan mərmərdən hazırlanıb. 20-ci əsrin məşhur yazıçısı Marquerite Yourcenar uzun müddət burada qalıb və o, 20-ci əsrin ən gözəl romanlarından biri "Hadrianusun xatirələri" üçün ilham alıb. İndi bu əsər turistlərə "Tivoliyə səyahət etməzdən əvvəl mütləq oxumağa dəyər", - deyə məsləhət görülür.

Bu arxeoloji abidənin qlobal əhəmiyyətinə baxmayaraq, giriş qiymətləri digər attraksionlarla müqayisədə kifayət qədər aşağıdır: cəmi 8 avro.



## "İTALYAN BAĞLARININ MODELİ"

Tivolinin digər məşhur sarayı "Villa Este" 16-cı əsrə aid nəhəng bir mülkdür. Şəhərin mərkəzində yerləşən villa tez-tez Avropadakı memarları ilhamlandıran "İtalyan bağlarının modeli" adlanır. Bu bağlar mütəxəssislər tərəfindən çiçəklənmə dövründə "Landşaft dizaynının nümunəsi" hesab olunur. Tivolinin qərb hissəsində, kafedralın yanında yerləşən bağlar kifayət qədər geniş ərazini tutur. Bunlar kiçik bağlar deyil: heykəlləri, dumduru fəvvarələri, su şouları, hovuzları, şəlalələri, mağaraları və Roma ətrafının heyrətamiz mənzərələrinə malik terrasları olan bütöv bir bağ kompleksidir. Bu füsunkar yaşıllığın müxtəlif guşələri ilə tanış olmağa xeyli vaxt lazımdır. Ərazidə bir neçə dəbdəbəli fəvvarələr var: Mərkəzi, Tivoli və Neptun Fəvvarəsi heykəltəraşlıq qrupları ilə bəzədilib.

Bağdakı sarayın ən mühüm otaqları arasında dörd məşhur salon var: Şöhrət, Ovçuluq, Nuh və Birinci Tiburtin. Hər otaq İntibah sənətinin şah əsərləri ilə bəzədilib. Zalları gəzərək, sanki inanılmaz məharətlə təsvir olunan əfsanə və hekayələrin füsunkar dünyasına qərq olursan. "Bu saraylar arxeoloqlar üçün maraqlı bir obyektdir. Qazıntıların nəticələri heyrətləndirməkdə davam edir", - deyə Sarayın bələdçiləri bildirir. Sarayın verandalarından Tivoliyə gözəl panorama açılır: nağıl şəhər ayağının altındadır.

Tivolini hər səyahətçi "nələrisə görə bilmədim" hissi ilə tərk edir. Buna görə də Tivoliyə qayıtmaq üçün həmişə bir səbəb var.



# SÜRƏTLİ RƏQƏMSALLAŞMA RİSKLƏRİ DƏ ARTIRIR

Bu ilin ilk yarısında Azərbaycanda 47 dövlət qurumunun 95 əməkdaşı kibergigiyena qaydalarına riayət etmədiyinə görə haker hücumlarının qurbanına çevrilib. Həmin şəxslərin 16 faizi admin səlahiyyətli əməkdaşlar olub.



Bakıda Dövlət Qurumlarının İT rəhbərlərinin VI Zirvə Toplantısı keçirilib. Tədbir Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) təşkilatçılığı ilə reallaşıb.

**KRİTİK İNFRASTRUKTUR SİSTEMLƏRİNƏ QARŞI HÜCUM**

Zirvə Toplantısında çıxış edən XRİTDX-nin rəis müavini Allahverən İsmayılov bildirib ki, informasiya təhlükəsizliyi artıq milli təhlükəsizlik, iqtisadi sabitlik və ictimai etimad məsələsidir. Onun sözlərinə görə, rəqəmsallaşmanın sürətlənməsi ilə risklər də artır: "Statistik göstəricilər son beş ildə dünyada kiberhücumların üç dəfədən çox artdığını göstərir. 2025-ci ilin yalnız ilk yarısında dövlət qurumlarına yönəlmiş hücumların 40%-dən çoxu kritik infrastruktur sistemlərinə qarşı olub. Bu isə hər bir zəifliyin strateji riskə çevrilə biləcəyini göstərir".

**"ƏSAS PROBLEMLƏRDƏN BİRİ MƏLUMATLARIN SIZMASIDIR"**

A.İsmayılov bildirib ki, Azərbaycan da bu qlobal tendensiyalardan kənarda deyil: "Dövlət informasiya ehtiyatlarında təhlükəsizlik insidentlərinin səbəblərini təhlil edərkən görürük ki, əsas problemlərdən biri hələ də məlumatların sızmasıdır. Bu, yalnız texniki boşluqlardan deyil, həm də idarəetmə proseslərindəki zəifliklərdən qaynaqlanır. Buna görə də təhlükəsizlik mədəniyyətinin bütün dövlət qurumlarında formalaşması və mütəmadi risk qiymətləndirmələrinin aparılması həyati əhəmiyyət daşıyır".

Rəis müavini həmçinin Azərbaycanda beynəlxalq təcrübəyə uyğun olaraq ilk dəfə həyata keçirilən "Bug Bounty" proqramını xüsusi vurğulayıb: "Bu təşəbbüs dövlət qurumlarının açıq və əməkdaşlığa əsaslanan yanaşmaya keçid etdiyini göstərir. Çünki müasir dünyada kibertəhlükəsizlik yalnız qapalı sistemlərin müdafiəsi deyil, həm də ekspert icmaları ilə əməkdaşlıq deməkdir".

## 95 əməkdaş haker hücumlarının qurbanına çevrilib

XRİTDX-nin idarə rəisi Tural Məmmədov bildirib ki, bu ilin ilk yarısında Azərbaycanda 47 dövlət qurumunun 95 əməkdaşı kibergigiyena qaydalarına riayət etmədiyinə görə haker hücumlarının qurbanına çevrilib. Onun sözlərinə görə, həmin şəxslərin 16%-i admin səlahiyyətli əməkdaşlar olublar: "Bu dövr ərzində dövlət informasiya sistemində fərdi məlumatların əldə edilməsinə və toplanmasına imkan verən 62 boşluq aşkarlanıb".

Tural Məmmədov qeyd edib ki, Bu ilin birinci yarısında Azərbaycanda demək olar ki, DDoS (Distributed Denial-of-Service - Dağıdılmış Xidmətin İnkaredilməsi) hücumlarının müşahidə olunmadığı gün olmayıb.

Onun sözlərinə görə, hesabat dövründə qarşısı alınmış DDoS hücumların ümumi həcmi 300 Tbps təşkil edib: "Həcmi 1 Gbps olan DDoS hücumlarının sayı 18 olub. Eyni dövrdə "AzStateNet" şəbəkəsi üzrə 262,92 milyon zərərli keçid, son istifadəçilərdə quraşdırılan mərkəzi antivirus sistemi vasitəsilə 12 milyon 366 min 400 zərərli məzmun, "Sandbox" mühafizə sistemi vasitəsilə isə 61 min 482 zərərli elektron sənəd bloklanıb".

İlin birinci yarısında qarşısı alınmış DDoS hücumların həcmi 300 Tbps olub 3. "AzStateNet" üzərindən 262,9 milyon zərərli keçid bloklanıb 4. Antivirus sistemi 12 milyondan çox zərərli məzmunun qarşısını alıb.



Allahverən İsmayılov

Tural Məmmədov

## Estoniya kiberdiplomatiyanın inkişafını dəstəkləyəcək

Estoniya Elektron İdarəetmə Akademiyası Fondu ("eGA") Azərbaycanda kiberdiplomatiyanın inkişafını öyrənmək və dəstəkləmək niyyətindədir. Bu barədə isə "eGA"nın kibertəhlükəsizlik üzrə baş mütəxəssisi Elza Nim bildirib.

Onun sözlərinə görə, Azərbaycan qurumları ilə əməkdaşlıq kibertəhlükəsizlik sahəsində beynəlxalq qarşılıqlı fəaliyyətin gücləndirilməsi və kritik infrastrukturun müdafiəsi üçün müasir mexanizmlərin formalaşdırılması baxımından geniş perspektivlər açır.

## SOCAR və "Özbəkneftqaz" qeydiyyat prosesini tamamlayacaq

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Özbəkistanın "Özbəkneftqaz" dövlət şirkəti sentyabrda bu ölkənin Üstyurt regionundakı investisiya bloklarında geoloji-kəşfiyyat işlərinin aparılması üçün əməliyyat şirkətinin qeydiyyat prosesini tamamlamağı planlaşdırırlar. Bu barədə "Report" "Özbəkneftqaz"a istinadən xəbər verir.

"Özbəkneftqaz" və SOCAR rəhbərləri videokonfrans formatında danışıqlar aparıblar. Görüş zamanı Özbəkistan Prezidentinin fərmanı ilə təsdiqlənmiş Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) icrasının gedişatı, həmçinin Üstyurt regionundakı investisiya bloklarında geoloji-kəşfiyyat işlərinin sürətləndirilməsi və başlanması üçün tədbirlər müzakirə edilib", - məlumatda bildirilib.

Tərəflər bu layihənin həyata keçirilməsinin texniki məsələlərini, həmçinin onun reallaşdırılması üçün operator şirkətin açılması ilə bağlı məsələləri müzakirə ediblər.

"Danışıqların nəticəsinə görə, sentyabrda operator şirkətin qeydiyyat prosesinin tamamlanması, seysmik kəşfiyyat işlərinin yeni müddətlərinin müəyyən edilməsi və layihənin ekoloji qiymətləndirilməsi prosedurlarının başlanması barədə razılıq əldə edilib", - məlumatda qeyd olunub.

Xatırladaq ki, 2025-ci il iyulun 24-də Özbəkistanın Energetika Nazirliyi, SOCAR və "Özbəkneftqaz" Üstyurt neft-qaz regionunun investisiya bloklarında (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) geoloji kəşfiyyat işlərinin aparılmasını və sonrakı karbohidrogen hasilatını nəzərdə tutan hasilatın pay bölgüsü sazişini imzalayıblar.

Sazişin şərtlərinə uyğun olaraq, ən azı min kv. km sahədə 3D seysmik kəşfiyyat işlərin aparılması və nəticələrə əsasən bir quyuda geoloji kəşfiyyat işlərinə başlanılması planlaşdırılır.

Proqnozlara görə, Üstyurt bloklarında 100 milyon ton neft və 35 milyard kubmetr təbii qaz ehtiyatı olan yataq tapıla bilər. Layihə işə salındıqdan sonra Üstyurt yaylasında ildə 5 milyon ton neft hasil etmək imkanının yaranacağı güman edilir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1847
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# "KÖLGƏLƏNƏN" İQTİSADİYYAT



Bu gün ölkəmizdə 3,2 milyard manatlıq məhsul və xidmət statistikadan kənardadır. 2,2 milyard manatlıq əlavə dəyər isə uçotdan gizlədilir. Ekspertlər kölgə iqtisadiyyatının azaldılmasının yollarını açıqlayırlar.

**SEVİNC ABBASOVA**

Azərbaycanda müşahidə olunmayan iqtisadiyyatın ÜDM-də payı 7,7 faiz təşkil edir. Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimovun sözlərinə görə, bunun 1,8 faizi kölgə iqtisadiyyatının payına düşür: "İlk baxışda bu rəqəm kiçik görünə bilər, lakin bu, 3,2 milyard manatlıq məhsul və xidmətin statistikadan kənarda qalması, 2,2 milyard manatlıq əlavə dəyərin isə uçotdan gizlədilməsi deməkdir".

Maraqlıdır, kölgə iqtisadiyyatı daha çox harada "kölgələnir"?

### BƏZİ SAHİBKARLAR "AĞARMAQ" İSTƏMİRLƏR

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisadçı Ruslan Atakişiyev bildirir ki, bəzi sahibkarlar fəaliyyətlərini "ağartmaqda" maraqlı deyillər: "Biz bunu daha çox ticarət və xidmət sektorunda müşahidə edirik. Məsələn, iri ticarət mərkəzləri kölgə iqtisadiyyatının geniş yayıldığı yerlərdən biridir. Regionlarda yerləşən bəzi istehsal müəssisələri də vergidən yayınır. Bəzi müəssisələr isə gəlirlərinin yalnız müəyyən bir hissəsini açıqlayır, digər hissəsini gizlədirlər. Demək olar ki, bütün sahələrdə kölgə iqtisadiyyatına rast gəlinir. Dövlət qurumları da çalışırlar ki, həmin sahələr "ağardılsın"".

Ekspertin sözlərinə görə, iqtisadiyyatın tamamilə ağardılması qeyrimümkündür. Amma "görünməyən" fəaliyyətlərin həcmini ciddi səviyyədə azaltmaq olar: "Bunun üçün vergi nəzarəti mütəmadi olaraq həyata keçirilməlidir. Eyni zamanda, stimullaşdırıcı tədbirlər nəzərdə tutulmalıdır ki, kölgədə olan sahibkarlar fəaliyyətlərini ağartmaqda maraqlı olsunlar. Hazırda sahibkarların gəlirlərini gizlətmə səbəblərindən biri alışlarla bağlıdır. Onlar çox vaxt alışları həyata keçirərkən məcbur olurlar ki, bəziləri qeyri-rəsmi olsun. Bu istiqamətdə nəzarətin gücləndirilməsi vacibdir. İkinci məsələ, çox vaxt sosial ödəmələrin həcmi yüksək olduğundan sahibkarlar rəsmi müqavilə ilə işçi götürməkdə maraqlı olmurlar. Bu məsələyə diferensial şəkildə baxılmasına ehtiyac var".

### "NÜMUNƏVİ VERGİ ÖDƏYİCİLƏRİNİN REYTİNQİ HAZIRLANSIN"

Ekspert həmçinin vurğulayır ki, sahibkarların "kölgə"dən çıxarılması istiqamətində sistemli iş aparılmalıdır: "Yaxşı olar ki, nümunəvi sahibkarlıq subyektlərinin reytinqi müəyyənləşdirilsin və cəmiyyətə elan olunsun. Kölgə iqtisadiyyatında mövcud olan sahibkarların "kölgə"dən çıxarılması istiqamətində iş aparılmalıdır. Yəni onlar mövcud istehsal avadanlıqlarını və sexlərini "ağartmaqda" çətinlik çəkirlərsə, burada da bir inam, dəstək formalaşdırmaq lazımdır. Düşünürəm ki, onlarla fərdi görüşlər keçirmək, problemlərinə yaxından bələd olmaq lazımdır".

## İri ticarət mərkəzlərində sənədsiz mal dövriyyəsi

Vergi məsələləri üzrə ekspert Anar Bayramov deyir ki, son illər kommersiya obyektlərinin dövriyyəsinin şəffaflaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib: "Amma bu, bəzi sahibkarlara sərf etmir. Onlar müxtəlif yollarla vergidən yayınmağa cəhd göstərirlər. Bu gün karqo şirkətləri iqtisadiyyatın "kölgələnməsində" müəyyən rola malikdir. Xaricdən gətirilən mallar onların adına çox cüzi məbləğlə rəsmiləşdirilir. Yəni, faktiki olaraq malın mülkiyyətçisi, idxalatçısı başqa şəxslərdir, lakin həmin şəxslər rəsmi qaydada fəaliyyət göstərmirlər".

A.Bayramovun fikrincə, kölgə iqtisadiyyatının böyük bir payı iri ticarət mərkəzlərinin üzərinə düşür: "Sədərək", "Binə" kimi iri ticarət mərkəzlərində böyük həcmdə sənədsiz mal dövriyyəsi mövcuddur. Regionları götürəndə isə mərkəzdən kənar yerlərdə kölgə iqtisadiyyatı hakim mövqeyə malikdir. Çünki orada əhalinin həssas qrupu yaşadığından məsələyə bir qədər emosional yanaşılır və nəzarət tədbirləri daha yumşaq formada həyata keçirilir. Xidmət sektorunda da kölgə iqtisadiyyatını hərəkət etdirmək daha rahatdır. Əsas yayınma üsullarından biri isə ödənişlərin "Card to card" üsulu ilə alınmasıdır. Eyni zamanda, ölkə xaricinə xidmətlər göstərərkən qanunvericiliyin tələblərini pozaraq ödənişləri kriptovalyuta vasitəsilə həyata keçirirlər. Bu da kölgə iqtisadiyyatında rol oynayır".

## Həm cəza, həm də stimullaşdırıcı tədbirlər

Mütəxəssis bildirir ki, dövlət tərəfindən bu kimi halların aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər görülür: "Zaman-zaman bununla bağlı qanunvericiliyə sərt tədbirlər gətirilib. Bundan başqa, kommersiya qurumları arasında nağdsız hesablaşmalar təşviq olunur ki, buna uyğun olaraq onlara müəyyən qədər vergi endirimləri edilir. Yəni, dövlət bu istiqamətdə həm cəzalandırma, həm də təşviq vasitəsilə tədbirlər həyata keçirir. Nəticədə kölgə iqtisadiyyatının səviyyəsi ildən-ilə aşağı düşür".

Ekspert vurğulayır ki, kölgə iqtisadiyyatı dünyanın ən inkişaf etmiş ölkələrində də mövcuddur: "Bunun əksini düşünsək, o zaman həmin ölkələrdə maliyyəvergi nəzarəti idarələri də olmamalıdır. Amma dünyanın ən inkişaf etmiş ölkələrində belə həmin idarələr var, vergi qanunvericiliyi mövcuddur. Sadəcə, kölgə iqtisadiyyatının faizi ölkədən-ölkəyə dəyişir".

### YARIM MİLYONDAN ARTIQ MƏNZİL KİRAYƏ VERİLİR

"İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Eyyub Kərimli isə hesab edir ki, hazırda ölkəmizdə kölgə iqtisadiyyatının payının 1,8 faiz təşkil etməsi arzuolunan hal deyil. Onun sözlərinə görə, kölgə iqtisadiyyatının mövcud olduğu sahələrdən biri kirayə mənzil bazarıdır. Hazırda ölkəmizdə yarım milyona yaxın mənzil kirayə verilib. Bunların da böyük hissəsi vergidən yayınır. Hətta bəzi insanların kirayədə bir neçə evi var. Bundan başqa, klinikalarda, şadlıq saraylarında vətəndaşlardan böyük məbləğlərdə nağd vəsaitlər alınır. Amma bunun müqabilində onlara heç bir qəbz təqdim olunmur. Xatırlamıram ki, hansısa restoran və ya şadlıq sarayı təşkil olunan ziyafətə görə müştərinin etdiyi ödənişlə bağlı ona qəbz təqdim etsin. Təmir-tikinti, kənd təsərrüfatı, repetitorluq sahəsində də belə hallar baş verir".





# AZƏRBAYCAN ÇAY BAZARINDA BALANS DƏYİŞİR



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**İdxalın azalması dünya bazarında qiymət dəyişiklikləri və daxili bazarda yerli istehsalın artması ilə əlaqələndirilir. İxracın artması isə yerli istehsalçıların məhsullarını yeni bazarlara çıxarmaq imkanlarının yaranması ilə bağlıdır.**

Bu ilin yanvar-iyul aylarında Azərbaycan 7 814 ton çay idxal edib. Bu həcmdə çayın dəyəri 47 milyon 587 min ABŞ dolları təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə həcm baxımından 528 ton (6,3 faiz) azdır, dəyər baxımından isə dörd milyon 614 min ABŞ dolları (10,7 faiz) çoxdur. Bundan başqa, yeddi ay ərzində Azərbaycan üç milyon 905 min ABŞ dollar dəyərində 430 ton çay ixrac edib. Bunlar, ötən ilin eyni dövrünə nisbətən həcm baxımından 31 ton (7,7 faiz), dəyər baxımından isə 317 min ABŞ dolları (8,8 faiz) çoxdur. Hesabat dövründə çay ixracından əldə olunan gəlir Azərbaycanın ümumi ixrac gəlirlərində 0,03 faiz paya malik olub.

Görəsən, çay idxalının azalması, ixracının artması nə ilə əlaqələndirilə bilər?

### QİYMƏT DƏYİŞİKLİKLƏRİ, YERLİ İSTEHSALIN ARTMASI

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, son dövrlərdə Azərbaycanın çay idxalının həcmi azalır, lakin dəyəri artır, ixrac isə həm həcm, həm də dəyər baxımından artım göstərir: "İdxalın azalması dünya bazarında qiymət dəyişiklikləri və daxili bazarda müəyyən qədər yerli istehsalın artması ilə əlaqəlidir. İstehlakçılar getdikcə daha çox keyfiyyətli çay markalarına üstünlük verirlər. İxracın artması isə yerli istehsalçıların məhsullarını yeni bazarlara çıxarmaq imkanları ilə bağlıdır. Azərbaycanda çay plantasiyalarının bərpasına yönəlmiş dövlət dəstəyi və regional layihələr idxaldan asılılığı müəyyən qədər azaldır. Digər tərəfdən, ixracın artması Lənkəran-Astara bölgəsində istehsal edilən çayın xarici bazarlarda tanınmağa başlaması ilə izah edilə bilər".

N.Əzizlinin fikrincə, idxalın həcminin azalıb, amma dəyərinin artması o deməkdir ki, əvvəlki illə müqayisədə daha az həcmdə, lakin daha bahalı və keyfiyyətli çay idxal olunub. Yəni əsasən dünya bazarında çayın qiymətinin yüksəlməsi müşahidə edilir: "Əsasən daha keyfiyyətli və yüksək qiymətli çaylar idxal olunur. Bu, həm də dünya bazarında çayın qiymətinin artması ilə əlaqədar bir prosesdir. Hazırda Azərbaycana çay əsasən Şri-Lanka, Hindistan, Çin, Keniya və İrandan idxal olunur. Bu ölkələr dünya üzrə ən iri çay istehsalçılarıdır və bazarda sabit mövqelərə malikdirlər".

Ekspert düşünür ki, ixrac artımını istehsalın genişlənməsi ilə əlaqələndirmək ən doğru yanaşma ola bilər: "Lənkəran-Astara bölgəsində çay plantasiyalarının bərpası istiqamətində dövlət dəstəyi var. Bu, istehsal həcminin artmasına səbəb olub. Amma yenə də ixrac həcmi ümumi göstəricilərdə çox kiçikdir. Son illər çayçılıq təsərrüfatlarında məhsuldarlığın artırılması və yeni plantasiyaların salınması ixrac üçün əlavə imkanlar yaradıb. İxrac üçün əsas bazarlar Rusiya, Qazaxıstan və Gürcüstan kimi ölkələrdir. Coğrafi yaxınlıq, tarixi ticarət əlaqələri və Azərbaycan çayının həmin ölkələrdə müəyyən qədər tanınması bu bazarların seçilməsinə səbəb olur". N.Əzizlinin sözlərinə görə, yerli istehsalın idxalı əvəz etməsi tam şəkildə olmasa da, qismən mümkündür: "Müasir texnologiyaların tətbiqi, intensiv bağların salınması və emal müəssisələrinin gücləndirilməsi ilə idxalın müəyyən hissəsini yerli istehsal əvəz edə bilər. Yerli istehsal yaxın illərdə idxalı tam əvəz edə bilməsə də, onun həcmini əhəmiyyətli dərəcədə azalda bilər".




### Köhnəlmiş plantasiyalar, müasir texnologiyaların çatışmazlığı

Müsahibimiz qeyd etdi ki, hazırda çay plantasiyalarının vəziyyəti təəssüf ki, ideal deyil: "Sovet dövründə 13 min hektara yaxın çay plantasiyası mövcud idisə, bu gün onların çoxu sıradan çıxıb. Hazırda yeni plantasiyalar salınır, amma proses hələ başlanğıc mərhələsindədir. Hazırda Lənkəran-Astara bölgəsində çayçılıq ənənəsi bərpa olunur. Yeni çay sahələri salınır, dövlət dəstəyi artır, amma hələ də əvvəlki illərin məhsuldarlıq səviyyəsinə çatılmayıb. Çay istehsalını artırmaq üçün əsas maneə kimi köhnəlmiş plantasiyaları, suvarma problemlərini, müasir texnologiyaların çatışmazlığını, iqlim dəyişmələrini, gənclərin marağının zəif olmasını və emal müəssisələrinin tam gücü ilə işləməməsini qeyd etmək olar. Bundan başqa, dünya bazarında rəqabət gücünün artırılması üçün markalaşma və marketinq də vacibdir".

### "İxrac daxili istehsalın hesabına deyil"

Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının direktoru Fərman Abdullayev isə dedi ki, idxalın azalmasında istehsalın rolu var. Yeni əkilən plantasiyalardan məhsullar götürürlər. Amma son illərdə yeni plantasiyalar əkilmir: "İxracın artmasında isə məsələ başqadır. Burada xarici şirkətlərə aid plantasiyalar mövcuddur. Hansı ki, onlar burada əkdikləri məhsulu öz ölkələrinə aparırlar. Azərbaycan çayı adı altında ixrac edilir, lakin daxili istehsalın hesabına deyil. Çünki daxildə heç ümumilikdə 1000 hektar çay plantasiyamız yoxdur. Yeni plantasiyalarla birgə 700-800 hektar ümumi ərazimiz ola bilər".

F.Abdullayevin sözlərinə görə, istehsalın artırılması üçün subsidiyalar kifayət etmir: "Çay istehsalı ilə bağlı dövlət tərəfindən dəstək göstərilir. Hər bir hektar çay plantasiyasının əkininə 12 min manat subsidiya ayrılır. Amma sahibkarlar özü həvəsli deyil. Çünki bu sahə rentabelli deyil. Çay ciddi qulluq tələb edir. Fabriklər isə çayın kiloqramını maksimum 1 manat 50 qəpiyə götürür".


Nahid Əzizli

VİZASIZ REJİMİN TƏTBİQİ ÇİNLƏ TURİZM ƏLAQƏLƏRİNİ DAHA DA GENİŞLƏNDİRƏCƏK



# YARIM MİLYONLUQ HƏDƏF

Artıq paytaxtın küçələrində ərəb, rus, hindistanlı və ya pakistanlı turistlərlə yanaşı, Çindən gələn turistlərə də rast gəlinir. Onların gəlişini kütləviləşdirmək, təkcə paytaxta deyil, regionlarımıza da cəlb etmək üçün hərtərəfli işlər aparılır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ölkəmizə səfər edən çinli turistlərin sayında nəzərəçarpacaq artım müşahidə olunur. Bununla paralel ölkəmizi çinli səyahətçilərin üstünlük verəcəyi turizm istiqamətinə çevirmək üçün hazırlıqlar da gücləndirilib. Bu yaxınlarda Dövlət Turizm Agentliyinin təqdimatını keçirdiyi "China Ready" proqramı da bu məqsədə hədəflənib. Proqram Çin turizm bazarında rəqabət qabiliyyətini artırmaq istəyən ölkələr üçün nümunəvi model kimi təqdim olunur.

Artıq paytaxtın küçələrində ərəb, rus, hindistanlı və ya pakistanlı turistlərlə yanaşı, çinli turistlərə də rast gəlinir. Onların gəlişini kütləviləşdirmək, təkcə paytaxta deyil, regionlarımıza da cəlb etmək üçün təbii ki, hərtərəfli işlər görülməlidir. Nəzərə alsaq ki, çinlilər dünyada ən çox səyahət edən xalqdır və onları maraqlandırmaq o qədər də asan deyil.

Ancaq turizmçilər məsələyə optimist yanaşırlar.

### ARTIM MÜŞAHİDƏ OLUNUR

Çin turist bazarının çox nəhəng olduğunu bildirən turizmçi Rəhman Quliyev deyir ki, ölkələrimiz arasında turizm əlaqələrinin yaranmasında dövlət başçısı İlham Əliyevin Çinə ilk səfəri böyük rol oynayıb. "Prezidentin səfərindən sonra bir sıra sahələrdə əməkdaşlıqla bağlı memorandumlar imzalandı, qarşılıqlı əməkdaşlıq müzakirə olundu. Azərbaycana maraq artdı. İnvestorların marağı, işgüzar səfərlər, turistlərin səyahəti, tələbə mübadiləsi daha çox vüsət aldı. Yaxın gələcəkdə Çindən ölkəmizə nəinki turistlərin gəlişi, həmçinin böyük iş adamlarının işgüzar səfərləri baş tutacaq". Turizmçi hesab edir ki, Çinlə Azərbaycan arasındakı turist mübadiləsi digər ölkələrdən fərqli olaraq davamlı və dayanıqlı olacaq: "Bu əməkdaşlıq ölkələrimiz arasında ticarət, tələbə və turist mübadiləsinə yol açacaq. Vizasız gediş-gəliş rejiminin tətbiqi ölkələrimiz arasında turizm əlaqələrini daha da genişləndirəcək. Artıq bir neçə aydır viza tətbiqi aradan qaldırılıb. Bu imkan turistlərə bir aydan 90 günə qədər səyahət etmək imkanı verir. Uzun müddətli qalmaq üçün isə viza, o cümlədən tələbələrin təhsilindən ötrü tələbə vizaları tələb olunur. Viza tətbiqi aradan qalxandan sonra bizim ölkəmizdən Çinə səfər edən turistlərin sayında kütləvi artım müşahidə edirik. Eyni zamanda, Azərbaycana gələn çinli turistlərin də sayında artım qeydə alınır. Məqsəd qarşılıqlı turist mübadiləsini inkişaf etdirmək, əsasən çinli turistlərin ölkəmizə axınını gücləndirmək və davamlılığı saxlamaqdır".


Rəhman Quliyev



## DAHA ƏHATƏLİ TURPROQRAMLAR OLMALIDIR

Hazırda çinli turistlərin ölkəmizə səfərinin ən aktual mövzulardan biri olduğunu deyən turizmçi Əziz Şiriyev hesab edir ki, iki ölkənin vizasız rejimə keçməsi turizm əlaqələrinin inkişafına təkan verib: "Hazırda ölkələrimiz arasında böyük dostluq var. Artıq Azərbaycandan da Çinə səfərlər başlayıb. Nəzərə alaq ki, dünyada ən çox əhalisi olan Çin və Hindistandır. Hindistanlı turistlər gələndə 300-500 nəfər gəlirdilər. Bu da ölkəyə gələn turist sayına təsir edirdi. Bayramlarda çinlilər adətən dünyanı kəşf etməyə çıxırlar. Çin vətəndaşları tarix boyunca dünyanı gəzən olublar". Turizmçi Çin bazarı ilə bağlı görülən hazırlıq işlərindən danışaraq bildirdi ki, 100-ə yaxın bələdçi hazırlaşdırılır, xidmət sahəsi, hava limanı, gömrük, nəqliyyat sistemini daha da təkmilləşdirmək üçün işlər görülür: "Kadrların üzərində çalışmalıyıq ki, yüksək səviyyədə xidmət göstərsinlər. O cümlədən qiymət tənzimlənməsi olmalı, yəni turistlər aldadılmamalıdır. Milli-mənəvi dəyərlərimizi qabartmalıyıq. Çünki Çin xalqı milli-mənəvi dəyərlərə sahib çıxan və dəyər verəndir. Böyük bir kütlənin qarşısında durmaq üçün hazırlıqlı olmalıyıq. Biz bunu Hindistan bazarında da görmüşük. Amma Çin bazarında daha detallı və əhatəli turproqramlar olmalıdır ki, turist turisti gətirsin. Hazırda bu istiqamətdə hazırlıqlar gedir".


Əziz Şiriyev

## ÇİN DİLİNİ BİLƏN TURİZM BƏLƏDÇİLƏRİ HAZIRLANIR

Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının (ATBA) İdarə Heyətinin sədr müavini Tural Musayevin sözlərinə görə, növbəti il üçün Çin bazarından 400 faizə yaxın artımla turist axını gözlənilir: "Dövlət Turizm Agentliyi tərəfindən bu yaxınlarda təqdimatı keçirilən "China Ready" proqramı çərçivəsində ekspertlər tərəfindən mehmanxana, nəqliyyat xidmətləri, bələdçilər və hava limanı işçiləri daxil olmaqla 100-dən çox turizm sənayesi nümayəndəsinə praktik tövsiyələr və Çin bazarında fəaliyyət üçün aktual yanaşmalar üzrə təlim keçiriləcək. Bu, beynəlxalq səviyyədə tanınan təlim və sertifikatlaşdırma sistemidir. Təlimlərdə Çin turizm bazarının dinamikası, çinli turistlərin gözləntilərinə uyğun brend quruculuğu və turizm məhsulunun hazırlanması, istehlakçı davranış modelləri və Çin turizm bazarına çıxış strategiyaları haqqında təqdimatlar ediləcək".


Tural Musayev

T.Musayevin sözlərinə görə, təlimlərdə iştirak edənlərin siyahısı hazırlanır: "Sonra bu siyahı ÇXR tərəfindən öz turizm sənayelərinə təqdim olunur ki, bunlarla işləyə bilərsiniz. Bu, qeyri-rəsmi start elanıdır. Yəni Çin dövləti özü təsdiqləyir ki, Azərbaycan onlardan gələn turistləri qəbul etməyə hazırdır. Bununla həmin ölkəyə turist axını daha da artır. Biz onları dəvət edən 72-ci ölkəyik". ATBA nümayəndəsi təşkilat tərəfindən çindilli turizm bələdçilərinin hazırlandığını bildirir: "Hazırda doqquz rəsmi sertifikatlı bələdçimiz var. Bu sahədə ümumi çalışan, Çin dilində danışan isə 12 nəfərdir. Amma bu, azdır. Biz istəyirik ki, heç olmasa 50 nəfər hazırlayaq". T.Musayevin sözlərinə görə, bu il Azərbaycanda Çindən gələn 52 min turist varsa, növbəti il bu rəqəm 200-250 minə çata bilər: "Bu cür davam etsək, gələcəkdə Çin bazarından yarım milyona yaxın turistin cəlbi ilə bağlı hədəfimiz var".

# BAKININ TOZUNA DA ÖYRƏŞMƏLİYİK



Artıq Bakıda demək olar ki, hər il mütəmadi olaraq tozlu havaları müşahidə edirik. Bu hal əvvəllər təəccüblü gəlsə də, paytaxtın küləyinə alışdığımız kimi tozuna da öyrəşirik.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Avqustun son günlərindən etibarən, Bakıda və Abşeron yarımadasında yenidən tozlu hava şəraiti müşahidə olunub. Ətraf Mühitin Çirklənməsinin Monitorinq Qrupunun baş mühəndisi Rəna Allahverdiyeva bildirib ki, havada tozun miqdarı normadan 1.8-2 dəfə artıqdır. O qeyd edib ki, müşahidə olunan toz meteoroloji şəraitlə əlaqədar transsərhəd xarakterlidir, cənub-şərq istiqamətli hava axınları vasitəsilə ölkə ərazisinə daxil olub və meteoroloji vəziyyətdən asılı olaraq iki gün ərzində davam edəcəyi gözlənilir.

Artıq Bakıda demək olar ki, hər il mütəmadi olaraq tozlu havaları müşahidə edirik. Bu hal əvvəllər təəccüblü gəlsə də, paytaxtın küləyinə alışdığımız kimi tozuna da öyrəşirik.

Bəs, maraqlıdır, tozlu havanın artıq Bakı üçün xarakterik olduğunu deyə bilərikmi?

**NİZAMSIZ TİKİNTİLƏR, İDARƏ OLUNMAYAN DAŞ KARXANALARI...**

Ekoloq Qorxmaz İbrahimli deyir ki, transsərhəd toz kütlələrinin ölkəyə daxil olub-olmamasından asılı olmayaraq, Bakı ümumilikdə çirkli şəhərdir. Bunun əsas səbəblərindən biri şəhərin küləkli iqlimə malik olmasıdır: "Lakin problem təkcə küləklə bağlı deyil. Tikinti işlərinin nizamsız aparılması, daş mədənlərinin düzgün idarə olunmaması tozlanmanın miqdarını xeyli artırır. Badamdar dağlıq massivi də daxil olmaqla paytaxtın bir çox ərazilərində həm daş karxanaları fəaliyyət göstərir, həm də intensiv tikinti işləri aparılır. Ən kiçik külək belə şəhər daxilindəki bu amillərlə birləşərək toz dərəcəsini yüksəldir. Sadəcə olaraq, bəzi hallarda bu tozu hiss etmirik, amma orqanizmimiz onu qəbul edir".

**"BU, AVQUST-SENTYABR AYLARINDA TƏKRARLANIR"**

Ekoloq bildirir ki, bundan əlavə, müşahidə olunan transsərhəd toz kütlələrinin bir hissəsi əsasən Cənub-Şərq küləkləri vasitəsilə Türküstan bölgəsinin səhralarından ölkə ərazisinə daxil olur. Bu hal hər il avqust-sentyabr aylarında təkrarlanır və artıq hava şəraitinin bir hissəsinə çevrilib. Toz kütlələri Xəzər dənizi üzərindən keçərkən qismən azalsa da, ən incə toz hissəcikləri Abşeron yarımadasına qədər çatır. Bu hal əsasən Bakı, Ələt, Salyan və digər Xəzərsahili ərazilərdə müşahidə olunur. Ölkənin digər regionlarına bu toz kütlələrinin çatmamasının səbəbi isə hissəciklərin məsafəni aşmaq üçün kifayət qədər dayanıqlı olmamasıdır".

**"MASKA VƏ QORUYUCU EYNƏKLƏRDƏN İSTİFADƏ EDİLMƏLİDİR"**

Mütəxəssis deyir ki, hazırda Bakıda davam edən tozlu hava mövsümi meteoroloji baxımdan gözləniləndir, lakin bu, onu təhlükəsiz etmir: "Havada tozun miqdarı normadan yüksəkdir və bu, xüsusilə ürək, tənəffüs yolları, bronxial və göz xəstəliklərindən əziyyət çəkən insanlar üçün ciddi təhlükə yaradır. Mütəxəssislər belə şəraitdə maska və qoruyucu eynəklərdən istifadəni tövsiyə edirlər. Lakin təəssüf ki, Bakının özü bu tozlu havadan qorunmaq üçün yetərli infrastruktur və mühafizə mexanizmlərinə malik deyil. Şəhərdə yaşıllıqların azlığı, tikinti işlərinin və daş karxanalarının çoxluğu fonunda bu kimi hallar daha da tez-tez baş verir".



Qorxmaz İbrahimli







**Fotolar:** Tapdıq Abdullayev/Global Photostock

## "Problemin kökü şəhərin özündədir"

Ekoloq vurğulayır ki, toz problemi təkcə transsərhəd deyil, Bakı özü toz mənbəyidir: "Biz illərdir deyirik ki, Bakı şəhəri bu qədər əhalini daşıya bilməz, şəhər boşaldılmalıdır. Azərbaycanın şəhərləşmə prosesi düzgün aparılmayıb, nəticədə ölkə əhalisinin yarıdan çoxu Bakı və Abşeron yarımadasında cəmləşib. Bu isə artıq ekoloji və sosial cəhətdən bir faciədir. Bu problemi həll etmək üçün dövlətin ciddi tədbirlər görməsi zəruridir. Transsərhəd toz kütlələri bir neçə günə çəkilə bilər, amma ölkə daxilində, xüsusən də Bakıda yaranan tozlanma davam edəcək. Sadəcə, şəhərin küçələrinə, məhəllələrə, aparılan tikintilərə baxmaq kifayətdir. İki-üç mərtəbəli binalar kütləvi şəkildə sökülür, külək əsəndə isə toz havaya qalxır. Bu, daimi və yerli toz mənbəyidir. Yəni təkcə transsərhəd hava axınlarını günahlandırmaqla məsələ bitmir, problemin böyük hissəsi şəhərin özündədir".

**BAKI ÜÇÜN TİPİK METEOROLOJİ HADİSƏ**

"Eko Monitorinq" Mərkəzinin direktoru Kənan Kərimli isə deyir ki, artıq tozlanmanı Bakı üçün müəyyən qədər tipik meteoroloji hadisə hesab etmək olar: "İqlim dəyişiklikləri, regionda səhralaşma meylləri və transsərhəd toz daşınmaları səbəbindən Bakı və Abşeron yarımadasında mütəmadi olaraq tozlu hava müşahidə olunur. Bu proses xüsusilə ilin isti mövsümündə daha qabarıq şəkildə özünü göstərir. Buna görə də artıq toz hadisələrini Bakı üçün müəyyən qədər tipik meteoroloji hadisə hesab etmək olar. Əgər əvvəllər bu cür toz epizodları ildə sadəcə bir neçə dəfə qeydə alınırdısa, hazırda onların sayı nəzərəçarpacaq dərəcədə artıb".



Kənan Kərimli

**"TOZ HAVANIN KEYFİYYƏTİNİ PİSLƏŞDİRİR"**

Bakı şəhərinin coğrafi mövqeyinə gəlincə isə, mütəxəssis deyir ki, məlum olduğu kimi, şəhər dəniz səviyyəsindən aşağıda, Abşeron yarımadasının dar ərazisində yerləşir. Bu səbəbdən havada sirkulyasiya çətinləşir: "Şimal və cənub küləklərinin istiqamətindən asılı olaraq, toz burada yığılaraq uzun müddət qala bilir. Urbanizasiyanın intensivliyi, yeni yüksək tikinti sıxlığı, asfalt və beton örtüklərin çoxluğu, yaşıllıq sahələrinin isə nisbətən azlığı tozun çökməsinə və havada qalma müddətinin uzanmasına səbəb olur. Eyni zamanda, toz avtomobil emissiyaları ilə qarışaraq havanın keyfiyyətini daha da pisləşdirir".

# BAPBALACA BOYU VAR, DAM DOLUSU RiSKi



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Keyfiyyətsiz göbələk daha çox qida toksiki infeksiyaları, allergik problemlər yaradır. Amma zəhərli göbələklər qısa müddətdə öldürə bilir. Göbələkdən zəhərlənmə olduğunu hiss edən kimi yubanmadan təcili yardım çağırılmalıdır.**

Tez-tez göbələkdən zəhərlənmə hallarına dair məlumatlar eşidirik. Bəzən ölümlə nəticələnən hadisələrə də rast gəlirik. Bu qida həm marketlərdə kütləvi şəkildə satılır, həm də mövsümi dövrlərdə açıq şəkildə bazarlarda, küçələrdə, yol kənarlarında satıldığını görürük. Bir çox hallarda insanlar açıq halda satılan göbələkləri almağa üstünlük verirlər. Bəs mütəxəssislər nə deyir? Göbələyi haradan və necə alsaq həm özümüzü, həm də yaxınlarımızı zəhərlənmə təhlükəsindən qoruya bilərik? Göbələk seçərkən diqqət edilməli məqamlar hansılardır?



### BU GÖBƏLƏKLƏRİ ALMAQ HEÇ BİR TƏHLÜKƏ YARATMIR

Qida mütəxəssisi Ağa Salamovun sözlərinə görə, marketdən göbələk alanda diqqətli olmaq lazımdır: "Marketlərdən mədəniləşdirilmiş şampinyon göbələklərini almaq heç bir təhlükə yaratmır. Onlarda zəhərlənmə ehtimalı sıfıra bərabərdir. Sadəcə diqqət etmək lazımdır ki, göbələk düzgün şəraitdə saxlanılsın. İstehlakçılar aldıqları göbələyin qoxusuna da diqqət etsin. Şirə salmış, rəngi dəyişmiş, qaralmış göbələk almasınlar. Normal göbələk ağ rəngdə olmalıdır. Göbələyi aldıqdan sonra evdə də uzun müddət saxlamaq olmaz. Üç gün ərzində istehlak edilməlidir".

Ekspert göbələyin bişirilmə qaydasına da aydınlıq gətirdi: "Göbələyi bişirilən zaman şirə salmamasına, rəngini dəyişməməsinə diqqət edilməlidir. Yüksək atəşdə təcili bişirilməlidir. Yanında qatıq və digər süd məhsulları ilə yeyilə bilər. Amma göbələk yeyərkən alkoqol istifadəsi zəhərlənmə riskini artırır".

### "QATIQ VƏ DİGƏR SÜD MƏHSULLARINDAN İSTİFADƏ ÇIXIŞ YOLU DEYİL"

A.Salamovun fikrincə, Bakıya rayonlardan gətirilən göbələyi almaq risklidir: "Çünki çox zaman meşədən səhvən şampinyon əvəzinə solğun əzvay göbələyi yığırlar. Bu göbələk zəhərli olduğundan, yedikdə ölümlə nəticələnə bilər. Əksər hallarda satıcılar tanımır, sadəcə satış məqsədilə yığıb satırlar".

Mütəxəssisin sözlərinə görə, göbələk turşusu da təhlükəlidir: "Hansı ki, bir çoxunun üzərində tarixi də olmur. Bazarlarda belə məhsullara rast gəlmək mümkündür. Hansı ki, meşədən toplayıb kustar üsulla hazırlayırlar".

Ekspertin fikrincə, göbələkdən zəhərlənmə zamanı qatıq və digər süd məhsullardan istifadə etmək çıxış yolu deyil. Ən düzgün yol xəstəxanaya müraciət etməkdir.

## "Həzm olunması çətin qidadır"

Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkim-toksikoloqu Aynur Məmmədova bildirdi ki, göbələk yeyərkən maksimum ehtiyatlı olmaq lazımdır: "Marketlərdə satılan, süni şəkildə yetişdirilən göbələklər zəhərsizdir. Amma bişirdikdən sonra mütləq yeyilməlidir, digər günlərə saxlanılmamalıdır. Göbələk həzmi çətin qidadır. Mədə-bağırsaqda, mədəaltı vəzində, öd kisəsində, həzm sistemində problem olan xəstələrin göbələk yeməsi məsləhət görülmür. Beş yaşına kimi uşaqlara verilməsi də düzgün deyil. Yaşlı insanların da istehlakını məsləhət görmürük".

Həkimin fikrincə, zəhərli göbələyi sadəcə yemək deyil, ona toxunmaq da böyük faciələrə səbəb ola bilər: "Yay aylarında insanlar rayonlara istirahətə gedirlər. Hansısa restoranda göbələk sifariş edəndə mütləq mənbəyi ilə maraqlansınlar. Hətta zəhərli göbələyə sadəcə toxunsaq belə mütləq əlləri yumaq lazımdır. Uşaqlara başa salmaq lazımdır ki, həyətdə, küçədə göbələk gördükləri zaman qəti şəkildə toxunmasınlar".

## "Allergiyası olan şəxslər göbələkdən istifadə etməməlidirlər"

A.Məmmədovanın sözlərinə görə, bu il göbələkdən zəhərlənmə baş verməyib, ölüm halı qeydə alınmayıb: "Amma mədə-bağırsaq pozğunluğu olan xəstələr tez-tez müraciət edirlər. Əksər hallarda müraciət edənlər deyirlər ki, bu gün bişirdik, sabah yedik. Göbələk çox ağır fəsadlara səbəb olur. Zəhərlənmə halında xəstəxanaya nə qədər tez müraciət edilsə, risk o qədər az olar".



Ağa Salamov



Aynur Məmmədova

Terapevt Fəxriyyə Əhmədovanın fikrincə, göbələyi əsasən ev şəraitində hazırlamalı və mütləq qaynatmalıyıq: "Açıq satışda olan, yol kənarında satılan göbələklərdən uzaq durmaq lazımdır. Alarkən qablaşdırılmasına, tarixinə, görünüşünə diqqət etməliyik. Göbələyi bişirərkən 3-5 dəqiqəlik suda qaynatmaq doğru addımdır. Həmin suyu atdıqdan sonra bişirə bilərik. Bu zaman tərkibindəki toksinlər funksiyasını itirir. Bununla təhlükəni minimuma endirmiş oluruq. Çalışaq göbələyi ev şəraitində hazırlayaq".

F.Əhmədovanın sözlərinə görə, bu mövsümdə göbələklə bağlı daha çox allergik problemlərə rast gəlinir: "Göbələk yedikdən sonra dəridə səpgilər, qaşınma, övrə kimi əlamətlər olur. Mart ayından bəri belə hallarla çox qarşılaşırıq. Allergiyası olan şəxslər göbələkdən istifadə etməməlidirlər".

### "ÖZBAŞINA MÜALİCƏ AĞIRLAŞMALARA SƏBƏB OLA BİLƏR"

Terapevt bildirir ki, keyfiyyətsiz göbələk daha çox qida toksiki infeksiyaları, allergik problemlər yaradır. Amma zəhərli göbələklər qısa müddətdə öldürə bilir. Göbələkdən zəhərlənmə olduğunu hiss edən kimi yubatmadan təcili yardım çağırılmalıdır. Mədə-bağırsaq təmizlənməlidir. Stasionar şəraitdə zəhərlənmə əlamətləri daha tez aradan qaldırılır. Özbaşına müalicə daha da ağırlaşmalara səbəb ola bilər.



Fəxriyyə Əhmədova

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
6 SENTYABR ŞƏNBƏ 2025



# 383 TRANSFER, 327 MİLYON AVRO XƏRC

Super Liqa klubları bu yay transferlərə çox böyük xərc çəkdilər. Yenə də əsas xərc çəkən "Qalatasaray"la "Fənərbağça" oldu. Digər klublar isə daha çox azad agent və ya aşağı ödənişli oyunçularla müqavilə imzaladılar.

Türkiyə Super Liqasında yay transfer pəncərəsi hərəkətli keçdi. Bu dəfə də bir neçə ulduz oyunçu qonşu ölkənin liqasına üz tutdu. Xüsusən, "Qalatasaray" və "Fənərbağça" transferlərdə fəallıq göstərdilər. "Beşiktaş", "Başakşəhər", "Trabzonspor" da bir neçə diqqətçəkən keçid həyata keçirdi. Beləliklə, artıq indidən demək olar ki, bu mövsüm "Fənərbağça" və "Qalatasaray" Türkiyə çempionu olmaq üçün əsas iddialılardır.

Super Liqa klubları bu yay transferlərə çox böyük xərc çəkdilər. Ümumilikdə klublar 383 transfer həyata keçirdilər. Bu keçidlər üçün xərclənən yekun məbləğ isə 327 milyon avrodan artıqdır. Sözügedən məbləğin əsas hissəsi isə məhz "Qalatasaray"la "Fənərbağça"nın payına düşür. Digər klublar daha çox azad agent və ya aşağı ödənişli oyunçularla müqavilə imzalayıblar.

Xərclərlə yanaşı, Türkiyə klublarının qazancı da məlum olub. Ümumilikdə 366 futbolçu komandaları tərk edib. Satışlardan yekun qazanc 166 milyon avrodan bir qədər artıq olub.

## KİSƏNİN AĞZINI AÇAN "QALATASARAY"

Super Liqada yayın ən aktiv klubu "Qalatasaray" oldu. Son çempionun əsas transferi Viktor Osimhendir. Daha əvvəl komandada icarə əsasında çıxış edən nigeriyalı forvard "Napoli"dən birdəfəlik alındı. Onun üçün "Qalatasaray" 75 milyon avro ödədi. Bu, Türkiyə futbolu tarixində rekord transfer məbləğidir. İstanbul klubu bununla kifayətlənmədi. Müdafiəyə "Monako"dan Uilfrid Sinqo cəlb olundu. 24 yaşlı sağ cinah müdafiəçisi "sarı-qırmızılılar"a təxminən 31 milyon avroya başa gəldi. Fernando Musleranın gedişindən sonra boş qalan qapı isə Türkiyə millisinin qolkiperi Uğurcan Çakıra həvalə olundu. "Qalatasaray" qapıçı üçün "Trabzonspor"a 27.5 milyon avro verməyə razılaşdı. Bu da Türkiyə Super Liqasında meydan oyunçusu olmayan keçid üçün ən böyük məbləğdir. "Qalatasaray" daha iki ulduz oyunçunu pulsuz cəlb etməyi bacardı. Onlardan biri Leroy Sanedir. "Bavariya"dan gələn və 32 milyon avro bazar dəyəri olan vinger komandanın hücum potensialını artıracaq. Transfer pəncərəsinin son günündə isə daha bir böyük keçid havayı başa gəldi. "Cim-bom" bu dəfə "Mançester Siti"dən İlkay Gündoğanı heyətinə qatdı.

### YENİLƏNƏN "FƏNƏRBAĞÇA"

"Fənərbağça" da transfer dövrünü aktiv keçirdi. Lakin "bülbüllər" "aslanlar" qədər böyük məbləğlər xərcləmədilər. "Fənər"lə bağlı əsas məqam baş məşqçi Joze Mourinyo ilə yolların ayrılmasıdır. Portuqaliyalı mütəxəssisi kimin əvəz edəcəyi də hələ bəlli deyil. Komandanın əsas transferi isə "Benfika"dan alınan Kərəm Aktürkoğludur. Bu keçid üçün klub 22.5 milyon avro ödədi. Ümumilikdə səs-küylü transferin komandaya necə fayda verəcəyi maraqla gözlənilir. Komandanın digər transferlərinə gəlincə, "Mançester Siti"dən Edersonun gəlişi qapı xəttindəki problemi həll etməyə hesablanıb. Klub ulduz qolkiper üçün ingilislərə 11 milyon avro ödəməli oldu. Hücum xəttinə isə Kərəmdən əlavə daha üç ciddi transfer həyata keçirildi. Burada xüsusən Con Duran diqqət çəkir. Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubundan icarəyə götürülən kolumbiyalı forvardın komandanın əsas qol silahı olacağı gözlənilir. Ona bu işdə Marko Asensio kömək etməlidir. "Real"dakı oyunu ilə ulduzlaşan ispaniyalı hücumameyilli yarımmüdafiəçi üçün Fransa PSJ-sinə 7.5 milyon avro ödənilib. Avstriyanın "Zaltsburq" klubundan gələn vinger Dorgelos Nene üçün isə klub 18 milyon avrosundan keçdi.

## "FƏNƏRBAĞÇA" MÜDAFİƏ VƏ YARIMMÜDAFİƏNİ DƏ GÜCLƏNDİRDİ

"Fənərbağça" müdafiə və yarımmüdafiə xətlərini də gücləndirdi. "Gent"dən 8 milyon avroya alınan Arçi Braunla "Vulverhempton"dan azad agent kimi cəlb olunan Nelson Semedu "arxa cəbhə"nin möhkəmliyinə cavabdeh olacaqlar. Onlara bu işdə PSJ-dən birdəfəlik alınan Milan Şkrinyar köməklik göstərəcək. Orta xətdə isə "Vest Hem"dən icarəyə götürülən Edson Alvares komandanın oyununa keyfiyyət qatmağa çalışacaq.

### ƏN DƏYƏRLİ TÜRKİYƏ KLUBU HANSIDIR?

Transfer dövründən sonra Türkiyə Super Liqasında klubların dəyərləri yenilənib. Hazırda heyəti ən bahalı oyunçulardan təşkil olunan "Fənərbağça"dır. Komandanın heyətinin ümumi dəyəri 315 milyon avrodur. "Fənər"i əzəli rəqibi "Qalatasaray" izləyir. "Sarı-qırmızılar"ın oyunçularının ümumi qiyməti 298 milyon avro təşkil edir. "Üçlüy"ü qapayan "Beşiktaş"da bu rəqəm 169 milyon avrodur. Digər klublar arasında 100 milyonluq səddi keçə bilən yoxdur. Mütəxəssislərin əksəriyyəti yekun turnir cədvəlinin də məhz oyunçu keyfiyyətinə uyğun olacağını proqnozlaşdırırlar. "Fənərbağça" və "Qalatasaray" çempionluğa əsas iddiaçılar hesab olunur. "Beşiktaş"ın bürünc qazanacağı ehtimal edilirsə, "Başakşəhər", "Trabzonspor" kimi klubların onlara çətinlik yaratmağa çalışacağı ehtimal olunur.


ARÇİ BRAUN